*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

AZƏRBAYCAN MİLLİ MƏTBUATI 150

19 iyul 2025-ci il №26 (9132) www.muallim.edu.az muallim@media.edu.az

## Azərbaycan–Türkmənistan qardaşlıq əlaqələrinin inkişafına töhfə



## Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq.

**Qurbanqulu BERDİMƏHƏMMƏDOV,**
*Türkmənistan Xalq Məsləhətinin sədri*

Biz möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazır olmağa əsaslanırıq. Qanunauyğun haldır ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir.

## İşğaldan azad edilən ərazilərimizdə təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür




### Prezident İlham Əliyev Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının və 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışlarında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin fevralında isə dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva burada aparılan tikinti işləri ilə tanış olublar.

Məktəbin binası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilib. Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı və iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib.

**Ardı səh.2**

## Mədəni soyqırımın sənədləşdirilməsi:




### Qərbi Azərbaycan irsinə tarixi baxış

"Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin – qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" adlı kitab tarixi yaddaşın sənədləşdirilməsi ilə yanaşı, Qərbi Azərbaycana sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə qayıdış prosesinə verilmiş mühüm töhfə kimi dəyərləndirilə bilər. Bu kitab təkcə dağıdılmış abidələrin fotosu və koordinatları deyil, həm də bir xalqın pozulmuş haqq səsinin sədasıdır. O səs isə artıq susmur – sənədlərlə, sübutlarla, faktlarla danışır.

Bax səh.6

### "Rəqəmsal məktəb" platformasının ölkə üzrə tətbiqinə başlanılacaq



Cari ildən etibarən "Rəqəmsal məktəb" platforması Bakı şəhərinin ümumi təhsil müəssisələrində istifadəyə verilib. "Rəqəmsal məktəb" təhsil sistemində müasir texnologiyaların tətbiqini təmin edir, tədris və idarəetmə proseslərini təkmilləşdirir, şəffaflığı artırır. Məqsəd təhsil keyfiyyətini yüksəltmək və müəllim-şagird arasında interaktiv əlaqəni gücləndirməkdir. Hazırda platforma 30 mindən çox pedaqoji heyəti və 500 mindən artıq şagirdi əhatə edir. Platformanın ölkə üzrə tətbiqi gələcək mərhələlərdə nəzərdə tutulub.

### Bağça yaşlı uşaqların 38,2 faizi məktəbəqədər təhsilə cəlb olunub



Hazırda ölkə ərazisində 1669 dövlət məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Ölkə üzrə 109550 uşaq məktəbəqədər təhsilə cəlb edilib. Ölkəmizdə bağça yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunma göstəricisi hazırda 38.2 faiz təşkil edir. Hədəf bu göstəricini 50 faizə çatdırmaqdır. 2024-cü ildə yeni tikilən 14 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Cari il ərzində 5 məktəbəqədər təhsil müəssisəsi isə əsaslı təmir olunub.

### Məktəbdənkənar müəssisələrə nə qədər şagird qəbul ediləcək?



Ötən ildən etibarən məktəbdənkənar təhsil müəssisələrinə şagird qəbulu ilk dəfə olaraq elektron sistem vasitəsilə həyata keçirilib. Pilot layihə çərçivəsində 20 müəssisəni əhatə edən bu yenilik nəticəsində 13000-dən çox müraciət qeydə alınıb və 10000 şagird məktəbdənkənar təhsil müəssisələrinə qəbul olunub. 2025-ci ildə elektron sistemin əhatə dairəsi genişləndirilərək pilot müəssisələrin sayı 50-yə çatdırılıb. 50 müəssisədə həyata keçiriləcək elektron qəbulda 25000-dən artıq şagirdin məktəbdənkənar təhsil müəssisələrinə cəlb olunacağı proqnozlaşdırılır. Hazırda məktəbdənkənar təhsil sahəsində ümumilikdə 29 idman növü və optimallaşdırma nəticəsində 10 istiqamət üzrə 73 adda dərnək fəaliyyət göstərir.

# İşğaldan azad edilən ərazilərimizdə təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür








## Prezident İlham Əliyev Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının və 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışlarında iştirak edib

Əvvəli səh.1

Bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İstifadəyə verilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam şəhərində 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, bu binanın da inşası “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində həyata keçirilib. Körpələr evi-uşaq bağçası binasının inşasına ötən ilin fevralında başlanılıb.

Bu ilin fevralında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binanın tikintisində işlərin gedişi ilə tanış olublar.

Məktəbəqədər təhsil müəssisəsinin binasında balacaların rahatlığının təmin olunması, həmçinin təlim-tərbiyə prosesinin yüksək səviyyədə aparılması üçün zəruri şərait yaradılıb. Binada oyun və yataq otaqları, musiqi, rəqs və idman zalları var.

İşğaldan azad olunmuş torpaqlarımızda əhalinin məskunlaşması ilə yanaşı, məktəbəqədər tərbiyə müəssisələrinin inşası istiqamətində ardıcıl işlər görülür. Belə layihələr, eyni zamanda, bu ərazilərdə icra edilən bərpa-quruculuq işlərinin tərkib hissəsi olmaqla da mühüm əhəmiyyət daşıyır.







# “Yüksəliş” müsabiqəsinin final mərhələsi başlanıb

İyulun 18-də “Bakı Ekspo Mərkəzi”ndə “Yüksəliş” müsabiqəsinin beşinci mövsümünün final mərhələsinə start verilib.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, maliyyə naziri Sahil Babayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, gənclər və idman naziri Fərid Qayıbov, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri Rövşən Məmmədov, gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, qaliblər və finalçılar iştirak ediblər.

Açılış mərasimində çıxış edənlər “Yüksəliş” müsabiqəsinin ölkədə idarəetmə potensialına malik, peşəkar və perspektivli kadrların seçilməsi və inkişafında oynadığı mühüm rolu vurğulayıblar. Qeyd edilib ki, 2019-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan “Yüksəliş” müsabiqəsi bu gün artıq milli insan kapitalı siyasətinin mərkəzi alətlərindən birinə çevrilib. Bu təşəbbüs idarəetmə sahəsində davamlı inkişafa xidmət edir, sistemli qiymətləndirmə və inkişaf mexanizmləri ilə insan kapitalının effektiv istifadəsinə şərait yaradır. Açılışda əvvəlki illərin qaliblərinin bu gün müxtəlif sahələrdə mühüm vəzifələr daşıdıqları və təşəbbüsləri ilə praktiki nəticələr ortaya qoyduqları da bildirilib. Beşinci mövsümün final mərhələsi də bu konseptin davamı kimi dəyərləndirilib və müsabiqənin ölkə üçün strateji əhəmiyyəti bir daha önə çəkilib.






Müsabiqənin builki konsepti Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2024-cü ilin “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqələndirilib. Eyni zamanda, 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin beşinci ildönümü və “Yüksəliş” müsabiqəsinin beşinci mövsümü eyni ilə təsadüf edir.



Qeyd edək ki, final mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük təlim proqramı təşkil olunub. Təlimlərə 55 ekspert cəlb edilib. Onlar real imtahan mühitinə yaxınlaşdırılmış simulyasiya olunmuş situasiyalar üzərindən iştirakçıların bacarıqlarını qiymətləndirməklə yanaşı, qiymətləndirmə meyarları, qiymətləndirmə mərkəzlərinin fəaliyyəti və ekspertlərin funksiyaları barədə də ətraflı məlumatlandırılıblar.

Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən “Qiymətləndirmə konfransı”(Assessment Conference) metodu ilə həyata keçirilir. Bu metod hər bir iştirakçının performansına çoxşaxəli yanaşmanı təmin edir və yekun qərarların kollegial əsasda verilməsinə imkan yaradır.

Final mərhələsində iştirakçılar “İdarəçi rollar modeli” üzrə fərqli situasiyaları həll etməklə öz bilik və idarəetmə bacarıqlarını nümayiş etdirəcək.

Üç gün davam edəcək bu mərhələdə əvvəlki dörd mərhələni uğurla tamamlayan 124 iştirakçı mübarizəyə qatılıb. Final mərhələsi iyulun 20-də başa çatacaq və ölkənin ən istedadlı kadrları arasında növbəti qaliblər müəyyən olunacaq. Bununla da beşinci “Yüksəliş” müsabiqəsi yekunlaşacaq.

“Yüksəliş” müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə təsis edilib. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manatlıq mükafat qazanırlar.

Beşinci “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2024-cü il dekabrın 18-də müvafiq Sərəncam imzalanıb.

# 220 məzun qızıl, 41 məzun isə gümüş nişanla təltif olunub




Elm və təhsil naziri Emin Əmrullayev ümumi təhsil müəssisələrinin 2024-2025-ci tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltif edilməsi ilə bağlı əmr imzalayıb. Əmrə əsasən 220 XI sinif məzunu qızıl, 41 XI sinif məzunu isə gümüş nişanla təltif olunub.

Qızıl və gümüş nişanla təltif olunmuş təhsilalanların adları oxuduqları məktəbin "Şərəf kitabı"na yazılacaq.

# BANM ölkənin əsas ali təhsil müəssisələrindən birinə çevrilib




## Nazir müavini Bakı Ali Neft Məktəbində keçirilən "Məzun günü"ndə iştirak edib






Bakı Ali Neft Məktəbində (BANM) növbəti "Məzun günü" keçirilib. Bu, ali məktəbin 9-cu buraxılışıdır. BANM-in rektoru Elmar Qasımov məzunları əlamətdar gün münasibətilə təbrik edərək. Bildirib ki, builki məzunlar SOCAR-ın və ölkənin müxtəlif sənaye müəssisələrində, xarici şirkətlərdə, həmçinin özəl və dövlət qurumlarında çalışmağa başlayıblar. Onlar, eyni zamanda, dünyanın nüfuzlu universitetlərinə qəbul olaraq təqaüdlər qazanıb və təhsillərini davam etdirirlər.

Qeyd edilib ki, əldə olunan nailiyyətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" devizinin bariz nümunəsi olduğunu təsdiqləyir.

Rektor Elmar Qasımov vurğulayıb ki, BANM bütün məzunlara diplomları ənənəvi olaraq məhz "Məzun günü"ndə təqdim etməyə davam edir.

SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva çıxışında ali məktəbin tələbələrə yüksəkkeyfiyyətli təhsil verməklə yanaşı, onların işlə təminatına da xüsusi diqqət yetirildiyini söyləyib.

Diqqətə çatdırılıb ki, 2024/2025-ci tədris ilində Bakı Ali Neft Məktəbinin bakalavriat səviyyəsindən 148, magistratura səviyyəsindən 172 nəfər olmaqla, ümumilikdə 320 tələbə məzun olur. Onlardan 52-si fərqlənmə diplomu ilə bitirir, 142 nəfəri xanımdır. Məzunların 24 nəfəri isə SOCAR-ın Gənc İstedadlar Proqramının iştirakçısıdır.

Vurğulanıb ki, "Times Higher Education (THE) Impact Rankings 2025" nəticələrinə əsasən, BANM bu nüfuzlu reytinqdə ilk dəfə iştirak etməsinə baxmayaraq, yüksək nəticə əldə edib.

Elm və təhsil nazirinin müavini İdris İsayev məzunları təbrik edərək bildirib ki, BANM qısa müddətdə ölkənin əsas ali təhsil müəssisələrindən birinə çevrilib.

Daha sonra "Kimya mühəndisliyi" ixtisasının məzunu, ali məktəb ikincisi İlkanə Mehdiyeva və Aqşin Yusifzadə çıxış ediblər. Hər iki məzun müəllimlərinə və valideynlərinə təşəkkür edib, ölkəyə və cəmiyyətə faydalı olacaqlarına söz veriblər.

2025-ci il məzun buraxılışı üzrə ali məktəbin birincisi - "İlin tələbə"si, "İnformasiya təhlükəsizliyi" ixtisasının məzunu İsmayıl Məmmədzadə adını fəxri kötüyə həkk edib.

Ali məktəbi fərqlənmə ilə bitirən məzunlara, ixtisas birincilərinə, hərbi xidmətə yollanacaq məzunlara diplomlar verilib. Diplomları təqdim edənlər sırasında Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Lu Mey də yer alıb. Xanım səfir məzunlara uğurlar arzulayıb.

Məzunların diplomlarının təqdimatından sonra tədbir bədii hissə ilə davam etdirilib.

# BMU-İNHA ikili diplom proqramının II məzun buraxılışı keçirilib

Bakı Mühəndislik Universiteti ilə Koreyanın İNHA Universiteti arasında icra olunan tam dövlət təqaüdlü ikili diplom proqramının (BMU-İNHA İDP) 2024-2025-ci tədris ili məzunları üçün təntənəli buraxılış mərasimi keçirilib. Elm və Təhsil Nazirliyinin rəhbərliyi, hər iki universitetin rektorları, Koreyanın Azərbaycandakı səfirliyi və KOİCA-nın əməkdaşları, iş adamları, universitetlərin professor-müəllim heyəti, eləcə də məzunların iştirak etdiyi tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, ardınca hər iki ölkənin Dövlət himnləri səsləndirilib.





Açılış nitqi ilə çıxış edən BMU-nun rektoru Yaqub Piriyev İNHA Universiteti ilə icra edilən ikili diplom proqramının sayca ikinci məzun buraxılışının keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncam ilə təsdiq edilmiş "2019-2023-cü illər üzrə Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması Dövlət Proqramı"nın ölkəmizin kadr potensialının güclənməsində mühüm roluna diqqət çəkən rektor dünyanın aparıcı universitetləri ilə birgə 6 beynəlxalq ikili diplom proqramından birinin məhz BMU tərəfindən həyata keçirildiyini universitetin tarixində mühüm hadisə kimi qiymətləndirib. Proqramla bağlı bir sıra statistik rəqəmləri nəzərə çatdıran Yaqub Piriyev Azərbaycan və Koreya respublikaları arasındakı əlaqələrə müsbət töhfə verən, professor-müəllim heyətinin nəzəri və praktiki biliklərinin təkmilləşməsində, yüksəkixtisaslı kadrların yetişdirilməsində müsbət rol oynayan proqrama görə Prezident İlham Əliyevə, Elm və Təhsil Nazirliyinə, proqramın gerçəkləşməsində dəstəyi üçün İNHA Universitetinə minnətdarlıq edib. Məzunların valideynlərini təbrik edən rektor övladlarının uğurlarında onların dəstəyinin əvəzsiz olduğunu deyib. 4 il ərzində ixtisaslarını yaxşı mənimsəmək üçün çalışan, Koreya dilini öyrənərək, bu ölkədə bilik və bacarıqlarını artıran məzunların Azərbaycan üçün yaxşı mühəndislər olacağına əminliyini ifadə edərək, məzunlara karyeralarında müvəffəqiyyətlər arzulayıb.

Mərasimdə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev məzunlara səmimi təbriklərini çatdırıb, təhsillərini başa vuran gənclərin əldə etdikləri bilik və bacarıqların həyatlarının növbəti mərhələsində onlara böyük dəstək olacağına, qazandıqları ixtisaslarla yerli və xarici əmək bazarında tələb edilən sahələrdə uğurlu karyera qura biləcəklərinə əminliyini söyləyib. Ölkəmizdə təhsilin müasir tələblər əsasında inkişafı üçün dövlət səviyyəsində görülən tədbirləri, bir sıra xarici ali təhsil müəssisələri ilə həyata keçirilən ikili diplom proqramlarını vurğulayan nazir müavini bunların insan kapitalının inkişafına yönəlik, gənc nəslin elmi potensialının üzə çıxarılması, beynəlxalq təcrübənin mənimsənilməsi ilə peşəkar kadr kimi formalaşmanın təmin edilməsi, nəticədə ölkəmizə layiqli mütəxəssislər qazandırmaq məqsədi daşıdığını deyib. Ali təhsil müəssisələrinin güclənən beynəlxalq mövqeyinə toxunan İdris İsayev BMU-nu açıqlanan son QS reytinqində ilk minlikdəki yerinə görə təbrik edib, bütövlükdə universitetlərimizin əldə etdiyi nailiyyətləri ölkəmizdə təhsilin inkişafı üçün görülən işlərin nəticəsi kimi qiymətləndirib. Çıxışının sonunda bir daha hər iki universitetin rəhbərliyinə, professor-müəllim heyətinə, həmçinin məzunların valideynlərinə minnətdarlıq edən nazir müavini onların əməyi və dəstəyinin böyük olduğunu bildirib.

Sonra İNHA Universitetinin rektoru Cho Myeong Voo məzunları təbrik edərək, onların əzm və səyləri sayəsində bu proqramın müsbət nəticələr verdiyini vurğulayıb. Koreya və Azərbaycan arasında təhsil əməkdaşlığının gözəl rəmzinə çevrilən ikili diplom proqramının beynəlxalq səviyyədə kadr hazırlığına uğurla xidmət etdiyini deyən rektor məzunların tədris boyu qazandıqları bilik və təcrübənin onların karyera pilləsində inamla addımlamasına kömək edəcəyinə əminliyini söyləyib.

Koreyanın ölkəmizdəki səfiri Kymgu Kang isə çıxışında ikili diplom proqramını Azərbaycan ilə Koreya arasında təhsil əməkdaşlığının nümunəvi göstəricisi adlandırıb. Məzun olmanın son yox, yeni bir başlanğıc sayıldığını deyən səfir gənclərin saysız-hesabsız imkanlarla dolu karyera yolunun çətinliklərini universitetlərin auditoriyasında sahib olduqları yaradıcı düşüncə və mübarizə ruhu ilə dəf edə biləcəklərinə inandığını bildirib.

Sonra proqramda fəallıqları ilə seçilən "Elektrik mühəndisliyi" ixtisasının məzunu Şəhanə Mirəliyeva və "İnşaat mühəndisliyi" ixtisasının məzunu Amani Sultanov çıxış ediblər. Çıxışlarda proqramın onlara iki müxtəlif ölkənin və universitetin tədris sistemini müqayisəli şəkildə öyrənmək, fərqli mühəndislik yanaşmalarını birləşdirərək daha çevik və qlobal düşüncəli mühəndislər kimi yetişmək imkanı yaratdığı vurğulanıb, gənclərin hərtərəfli inkişafına yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıq ifadə olunub.

Tələbələrin ifasında Azərbaycan və Koreya rəqsləri, eyni zamanda Xalq artisti Elçin Həşimov və Əməkdar artist Elnur Əhmədovun ifasında muğam parçaları ilə zəngin bədii hissənin ardınca ixtisas birinciləri, sosial-ictimai həyatda fəal iştirak edən məzunlar mükafatlandırılıb. Həmçinin məzunlara diplomlar təqdim olunub.

Tədbir məzunların "papaq atma"sı ilə başa çatıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**



# Elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar mövcuddur

## Nazir müavini Azərbaycan və Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının 13-cü iclasında çıxış edib

İyulun 12-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının 13-cü iclasında iştirak edib.

Energetika Nazirliyində keçirilən iclasda nazir müavini çıxış edərək Azərbaycan ilə Ukrayna arasında elm və təhsil sahəsində cari əməkdaşlıq istiqamətləri haqqında məlumat verib. Bildirilib ki, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası və təcrübə mübadiləsinin həyata keçirilməsi üçün geniş imkanlar mövcuddur.

Hökumətlərarası Komissiyanın hibrid formatda keçirilən iclasında həmçinin iki ölkə arasında siyasi, iqtisadi, ticarət və sənaye, enerji, nəqliyyat və informasiya-kommunikasiya texnologiyaları, eləcə də mədəniyyət sahələrində əməkdaşlığın cari vəziyyəti və potensial imkanlar müzakirə edilib.

Tədbirin sonunda iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının həmsədrləri tərəfindən iclasın yekunlarına dair Protokol imzalanıb.




# 1 gümüş, 3 bürünc medal

## 57-ci Beynəlxalq Kimya Olimpiadasında ölkəmizi təmsil edən milli komandamızın növbəti uğuru

5-14 iyul tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən 57-ci Beynəlxalq Kimya Olimpiadasında (IChO 2025) Azərbaycanı təmsil edən məktəblilərimiz yüksək nəticə əldə ediblər. Komandamız yarışda 1 gümüş və 3 bürünc medal qazanaraq beynəlxalq olimpiadada uğurla çıxış edib.

Sözügedən olimpiadada Bakı şəhəri, Kimya-biologiya təmayüllü Respublika liseyinin XI sinif şagirdi Murad Xəlilzadə gümüş, həmin liseyin XI sinif şagirdləri Ümid Mustafazadə, Nəzrin Həsənova və Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Rizvan Əsədov isə bürünc medal qazanıblar.

Şagirdlərimizi qazandıqları uğur münasibətilə təbrik edir, onlara gələcək müsabiqələrdə daha böyük nailiyyətlər arzulayırıq.



## Yusif Məmmədəliyev – 120

# “Qara qızıl”ın mahir zərgəri

## Azərbaycanlı alimin ixtirası, Böyük Vətən müharibəsində BÖYÜK qələbəyə töhfə

Ulu Tanrı yurdumuzdan heç nəyi əsirgəməyib. Azərbaycana - doğma məmləkətimizə həm yeraltı, həm yerüstü sərvətlər, həm də onu bütün dünyada şöhrətləndirən böyük dühalar, şəxsiyyətlər, zəka sahibləri bəxş edib. O zəka sahibləri ki, Azərbaycan elmini yüksəklərə qaldırmaqla, dünya elminə öz töhfələrini vermişlər. Elm aləmi bir qızıl üzükdürsə, onun dəyərli gövhərləri alimlərdir. Belə qüdrətli alimlərdən biri də elm tarixində qara qızılın mahir zərgəri kimi tanınan və bəşəriyyətin elm tarixinə adı qızıl hərflərlə yazılmış böyük Azərbaycan alimi, həmyerlimiz, qüdrətli zəka sahibi, elm korifeyi, böyük vətənpərvər, gözəl qəlbli insan, akademik Yusif Məmmədəliyevdir.

Elmdə və həyatda yüksək zirvələr fəth etmiş, elmin şöhrət zirvəsinin uca pilləsinə güclü istedadı və titanik əməyi ilə yüksəlmiş dünyaşöhrətli alimimiz akademik Yusif Məmmədəliyevin bu il 120 illiyinin qeyd olunması bizdə böyük qürur və iftixar hissi oyadır.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad şəhərində doğulmuş, yaşıllıqlar diyarı, bağlı-bağatlı Ordubad təbiəti də onun ilk müəllimi olmuşdur. Uşaqlıqdan incəqəlbli, həssas və həmişə fikirli görünən Yusif həm ailəsində gözəl tərbiyə almış, həm də torpağı şeirlə yoğrulan və böyük ədəbiyyatçıları ilə məşhur olan Ordubad mühitində ədəbiyyata və elmə xüsusi həvəs göstərmişdir. Dil öyrənməkdə xüsusi istedadı olub. O uşaq yaşlarında vaxtsız həlak olan qardaşı İlyasdan fars, ərəb, türk dillərini, sonradan isə ingilis dilini də mükəmməl şəkildə öyrənib elmi məclislərdə bu dildə sərbəst çıxışlar etmişdi. Yusif Məmmədəliyev rus və alman dillərinə də yiyələnmişdir. Məhz uşaqlıqdan hər şeyə böyük maraq göstərməsi sayəsində Yusif Məmmədəliyev gələcəkdə ensiklopedik bilikli alim olmuşdur.

1918-ci ilin iyun ayında Ordubada daşnakların basqını xəbərini eşidən Hacı Heydər kişi ailəsini böyük itki (oğlu İlyas Arazı keçərkən suda boğulur) və xeyli çətinlikdən sonra Təbrizə gətirir və iki ilə yaxın müddətdə orada yaşamalı olurlar.

Təbrizdə bu zaman Azərbaycanın qəhrəman oğlu Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə demokratik inqilab baş verir, gənc Yusif də alovlu vətənpərvərin çıxışlarını dəfələrlə dinləyərək xalqın azadlıq istəyinə həddsiz sevinirdi. Lakin mürtəce şah rejiminin qanlı cinayətləri, inqilabın amansızlıqla yatırılması gənc Yusifi çox mütəəssir edir. Bundan sonra onların ailəsi 1920-ci ildə yenidən Ordubada köçür.

Və doğma Ordubadda ilk addımlarını atır. Yerli inqilab komitəsinin xahişi ilə Y.Məmmədəliyev müəllim təyin edilir, ömrünün axırınadək müəllim amallı, müəllim vəzifəli qalır. Həm öz yaşıdlarına, həm də yaşlı adamlara dərs deyir. Ordubadda ilk qadın məktəbini də Y.Məmmədəliyev açır. 1923-cü ildə Bakıya gələn gənc Yusif ədəbiyyatçı olmaq arzusu ilə Azərbaycan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə daxil olmaq istəyir, lakin kimyaya həvəsi və ona edilən tövsiyələri nəzərə alaraq kimyaçı sənətini seçir. Hələ tələbə ikən fərqləndiyinə görə 1924-cü ildə Azərbaycan ziyalılarının I qurultayına nümayəndə seçilir və böyük məruzə ilə çıxış edir. 1926-cı ildə Pedaqoji İnstitutu bitirdikdən sonra Gəncəyə təyinat alır. O, dərs dediyi uşaqlara kimyanı böyük həvəslə tədris edər və onlara belə nəsihət edərdi: “Özünüz də axtarın, araşdırın, təbiətdə açılmamış sirlər çoxdur. Daş-qaşla deyil, yalnız elmlə üstünlük əldə edə bilər, xalqımıza çox xeyir verərsiniz!”.

### Məşhur akademikin azərbaycanlı tələbəsi

Axtarış həvəsi, öyrənmək ehtirası Yusif Məmmədəliyevi 1929-cu ildə Moskva Dövlət Universitetinin (MDU) Kimya fakültəsinə gətirir. Məşhur alim, akademik N.D.Zelinskinin tələbəsi olur. O gənc Yusifin istedadını görür, onu elmi işlə məşğul olmağa sövq edir. 1931-ci ildə MDU-nu bitirib Moskvanın kimya zavodlarının birində mühəndis işləyən Y.Məmmədəliyevin ürəyi isə daim vətəni Azərbaycanda idi. 1932-ci ildə o, indiki Azərbaycan Dövlət Aqrar Universitetinə kafedra müdiri təyin olunur. Bir il sonra isə Bakıda indiki Neft-Kimya Prosesləri İnstitutunda işə başlayır ki, burada laborantlıqdan, kiçik elmi işçidən akademikliyə qədər şərəfli yol keçir.

1938-ci ildə MDU Y.Məmmədəliyevin neft qazlarının tədqiqi sahəsindəki sanballı işlərinə görə, dissertasiya müdafiə etmədən ona kimya elmləri namizədi alimlik dərəcəsi vermişdir.

Y.Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırılma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla karbon tetra xlorid, metil xlorid və s. qiymətli məhsullar alınması yollarını göstərmişdir. Aromatik, parafin və sikloparafin karbohidrogenlərini doymamış karbohidrogenlərlə katalitik alkilləşdirilmə sahəsindəki tədqiqatı aviasiya yanacaqlarının yüksəkkeyfiyyətli komponentlərinin sənaye miqyasında sintezinə imkan vermişdir.

Y.Məmmədəliyev benzolu apropilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi üsulunu işləyib hazırlamış, bu da İkinci Dünya müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin olunmasına kömək etmişdir.

Yusif Məmmədəliyev Bakı neftinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisium-üzvi birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüşdür.

### Böyük elmi kəşf, yüksək mükafat

Xüsusilə Böyük Vətən müharibəsi dövründə Y.Məmmədəliyevin xidmətləri misilsizdir. Müharibənin başlanğıcında müdafiənin nəhəng tələbatlarını ödəmək tapşırığı Yusif Məmmədəliyevə həvalə olunur. Top mərmiləri və minaların hazırlanmasında partlayıcı maddələrin əsas komponenti olan toluol hasilatı prosesini ilk dəfə müəyyənləşdirib istehsalatda tətbiq etdirir.

Y.Məmmədəliyev sovet kimyaçıları sırasında ilk olaraq Dövlət Müdafiə Komitəsinin daha bir sifarişini qısa müddətdə yerinə yetirərək yüksək oktanlı benzin istehsalını təmin etdi. Bakıda bunun üçün dəyəri 12 milyon manat olan zavod tikildi.

1941-1944-cü illərdə Bakı neft ayıranları cəbhəyə 12 milyon 42 min ton yüksəkkeyfiyyətli benzin verdilər. Bu elmi rəşadətə görə Yusif Məmmədəliyev o dövr üçün yüksək mükafat olan “Lenin” ordeninə layiq görüldü. Y.Məmmədəliyevin elmi kəşfləri və ixtiraları alimləri heyrətə gətirmişdi.

Akademik N.İ.Şuykin Yusif Məmmədəliyevi kimyada yeni istiqamət “Alkilləşmənin kralı” adlandırırdı. Böyük xidmətlərinə görə, 1942-ci ildə kimya elmləri doktoru və professor adını almışdır.

Y.Məmmədəliyev həm də istedadlı elm təşkilatçısı idi. Fitri təşkilatçılıq qabiliyyətinə malik idi. Y.Məmmədəliyevin istər akademiyamızın, istərsə də onun bir çox müəssisə və tədqiqat institutlarının açılmasında misilsiz xidmətləri olmuşdur.

Məlumdur ki, Azərbaycanda akademiya qonşu respublikalara nisbətən gec - 1945-ci ildə açılmışdı. Bu da qabaqcıl ziyalıları Üzeyir Hacıbəyovu, Səməd Vurğunu, Yusif Məmmədəliyevi, Mir Əsədulla Mirqasımovu, Mirzə İbrahimovu və bir çoxlarını narahat edirdi. Moskvadan akademikliyə namizəd olan kadrları və müxtəlif elmi-tədqiqat institutlarını yoxlamaq üçün böyük bir komissiya gəlir. Nəhayət, sorğu-sual meydanına bəstəboy Yusif Məmmədəliyev girir. Bir neçə saat davam edən sorğu-sual və müzakirələrdən sonra SSRİ EA-nın prezidenti Komarov elan edir ki, təkcə Yusif Məmmədəliyev kimi bir alimi olan respublikada akademiya açılmağa dəyər.

### Kimya sahəsində ilk akademik

Beləliklə, Azərbaycanda Elmlər Akademiyası fəaliyyətə başladı. Y.Məmmədəliyev kimya sahəsində ilk akademik seçildi. Həmin ildə böyük alim Neft İnstitutunu təşkil etdi və ilk direktoru oldu. 1947-ci ildə Azərbaycan EA-nın prezidenti seçildi. Onun elmi fəaliyyətində yeni daha məsuliyyətli və məhsuldar dövr başladı. Akademiyanın prezidenti olduğu 6 il ərzində (1947-1951 və 1958-1961) 20-dən çox azərbaycanlı alim “Lenin” və SSRİ dövlət mükafatına layiq görüldü.

1948-ci ildə onun təşəbbüsü ilə “Bilik” cəmiyyəti təşkil edilmişdir. 1948-1950, 1958-1961-ci illərdə cəmiyyətin Rəyasət heyətinin sədri olmuşdur. Y.Məmmədəliyev 1951-1954-cü illərdə EA-nın fizika, kimya və neft üzrə akademik katibi işləmiş, 1954-1958-ci illərdə ADU-nun rektoru olmuşdur.

Yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında böyük xidməti olmuşdur. Y.Məmmədəliyev SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, Polşa, Monqolustan və b. ölkələrdə elmi qurultay, simpozium və konqreslərdə respublikamızı dəfələrlə təmsil etmişdir. Onun ADU-dakı nümunəvi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilərək “Qırmızı əmək bayrağı” və “Şərəf nişanı” ordenlərinə layiq görülmüşdür. Bir çox elmi müəssisələrin və SSRİ-də ilk olaraq Sumqayıt Sintetik Kauçuk zavodunun tikilməsi məhz Y.Məmmədəliyevin adı ilə bağlıdır.

Y.Məmmədəliyev elmin, mədəniyyətin bütün sahələrinə böyük diqqət və qayğı göstərmişdir. Onun Şamaxı Astrofizika Rəsədxanasını açmaq ideyası da maraqla qarşılanmışdı. Rəsədxananın avadanlığının bir çoxu isə böyük məbləğdə pulla xaricdən alınmalı idi. 1959-cu ildə Y.Məmmədəliyevin Almaniyaya rəsədxana üçün sifariş etdiyi böyük teleskop (diametri 2 m) Moskvaya gətirilir. Bundan xəbər tutan Ermənistan EA-nın prezidenti Moskvadakı A.Mikoyanla danışır ki, bu teleskop Ermənistandakı Byurakan Rəsədxanasına, oradakı köhnə teleskop isə Azərbaycana verilsin. Ermənilərin Moskvadakı böyük hamisi Mikoyan belə etməyə çalışır.

### Moskvadan gələn teleqram, təcili uçuş

Bunu bilən SSRİ EA-nın prezidenti A.Nesmeyanov Y.Məmmədəliyevə vəziyyət haqqında teleqram göndərir. Yusif Məmmədəliyev iclas aparаrkən teleqramı alır. Tez iclası müavini M.Topçubaşova tapşırıb özü Moskvaya uçur. 3 gün sonra həmin teleskop qatarla Bakıya çatdırılır. Sonradan onun böyük uzaqgörənliyi ilə Şamaxı Astrofizika Rəsədxanası (hətta yerini də özü müəyyən etmişdi) elm xəzinəsinə xeyli yeniliklər verdi.

Ədəbiyyatımıza, incəsənətimizə, görkəmli elm adamlarına və şairlərimizə qayğı ilə yanaşan Y.Məmmədəliyevin təşəbbüsü ilə əlyazmaların qorunması üçün Əlyazmalar Fondu yaradılmışdır.

Y.Məmmədəliyev böyük vətənpərvər alim idi. Azərbaycan vətəndaşı olması ilə fəxr etmiş, Azərbaycanın elmini ləyaqətlə təmsil edərək Azərbaycanın adını yüksəklərə qaldırmışdır.

Y.Məmmədəliyev 1952-ci ildən Respublika Sülhü Müdafiə Komitəsinin Rəyasət Heyətinin üzvü idi. Humanist amallı alim bu təşkilatda xeyli səmərəli fəaliyyət göstərmişdir. Sülhün carçısı kimi o, atom və nüvə silahlarının təhlükəsini qabaqcadan görərək nüvə enerjisinin ancaq sülh məqsədləri üçün bəşəriyyətin xeyrinə istifadə olunmasını təbliğ edirdi.

Y.Məmmədəliyev mədəniyyətimizin vurğunu və yorulmaz təbliğatçısı idi. İncə zövqə və həssas qəlbə malik olan Yusif hələ kiçik yaşlarından ədəbiyyata meyil göstərər, Firdovsinin, Xaqaninin, Nizaminin, Sədinin, Füzulinin, Cavidin, Sabirin və başqalarının şeirlərini oxumaqdan yorulmazdı. Özü də ara-sıra şeirlər yazardı. Dünya ədəbiyyatında humanist ideyalar carçısı Nizami Gəncəvinin “Xəmsə”si, Sədi Şirazinin hikmətlərlə dolu “Gülüstan” və “Bustan”ı, Firdovsinin “Şahnamə”si onun ilham mənbəyi idi. Mirzə Sadıq Ordubadi, Mirzə Məmməd Ordubadi, İbrahim Ordubadi, Hacağa Fəqir Ordubadi, Məmməd Səid Ordubadi, Məhəmməd Tağı Sidqi və s. görkəmli şair və yazıçılar yetişdirmiş, Ordubad şəhərində fəaliyyət göstərən “Əncüməni-şüəra” məclisi Y.Məmmədəliyevin formalaşmasına və inkişafına güclü təkan vermişdir.

### Səməd Vurğun: “Kaş ki, ədəbiyyatımızı Yusif Məmmədəliyev kimi biləydim”

1955-ci ildə onun ədəbiyyatımıza böyük qayğısını və məhəbbətini ifadə edərək Xalq şairi Səməd Vurğun ADU-da çıxışı zamanı təvazökarlıqla demişdir: “Kaş ədəbiyyatımızı, onun tarixini və problemlərini Yusif Məmmədəliyev kimi biləydim”.

Dilimizə sonsuz qayğı bəsləyir və deyirdi: “Öz dilini incəliklərinədək bilməyənlərdən əsl xalq ziyalısı ola bilməz”.

Bir dəfə ABŞ-dən gəlmiş alim Nizami muzeyi ilə tanış olarkən əməkdaşdan bir eksponatın altındakı farsca yazını oxuyub ingilis dilinə tərcümə etməyi xahiş edir. Həmin əməkdaşın çətinlik çəkdiyini görən Yusif Məmmədəliyev dərhal irəli gəlib yazını oxuyub ingilis dilinə tərcümə etmişdir. Bu zaman Amerika alimi təəccübünü gizlətmədən EA prezidentinin ensiklopedik biliyinə heyran olduğunu bildirmişdi.

Astronomiya ilə bağlı Yusif Məmmədəliyevlə akademiklərin toplaşdığı bir məclisdə (İrəvanda) astronom Ambarsumyan arasında yarım saat davam edən sual-cavab hamını heyran qoyur. Sonda akademik, SSRİ EA-nın prezidenti təəccübünü gizlədə bilməyərək “Bu kimyaçı alim astronomiyanın müasir problemlərini belə dərindən haradan bilir?” sualına akademik yarızarafat, yarıgerçək belə cavab verir: “Vaxtilə ehtiyac məcbur etdiyi üçün bir az öyrənmişəm”.

Y.Məmmədəliyev həm də elm tarixşünası idi. Bir çox tarixi həqiqətlərə söykənən proqnozlar vermiş və bunlar da özünü sonradan doğrultmuşdur.

Y.Məmmədəliyev muğamlarımızın divanəsi idi. Musiqimizin, aşıq musiqisinin, incəsənətimizin və təbiətimizin vurğunu idi. Şəxsiyyətə pərəstiş dövrü illərinin ağır nəticələri az qala onu da tutacaqdı. Dəfələrlə M.Bağırovla üzləşmə təhlükəsi olub. Öz dostları arasında tez-tez deyərdi ki, üç dəfə (1937, 1948, 1950-ci illərdə) real ölümün pəncəsindən çıxmışdır.

Y.Məmmədəliyev böyük xeyirxah insan idi. Onun ən gözəl keyfiyyəti insanlara məhəbbət idi. Xasiyyətində, davranışında ən böyük gözəlliyi hikmətlə dolu sadəliyi, təvazökarlığı idi. Y.Məmmədəliyev gözəl ailə başçısı, səmimi, mehriban və qayğıkeş ata idi. O, övladlarını (3 qızı var idi) milli ruhda tərbiyə edər, gözəl nəsihətlər verərdi. Sonradan qızı Sevda Məmmədəliyeva filologiya elmləri doktoru kimi atasının alimlik yolunu davam etdirmişdi.

Y.Məmmədəliyev istər rektor işləyəndə, istərsə də akademiyanın prezidenti olanda yolu Moskvaya, Leninqrada, Kiyevə düşəndə orada təhsil alan azərbaycanlı tələbələrlə görüşər, ehtiyaclarını öyrənib maddi və mənəvi kömək göstərərdi. Onunla çiyin-çiyinə işləmiş akademik M.Topçubaşov onu insanlıq möcüzəsi adlandıraraq deyirdi: “Yusif mənim üçün insanlıq, vətəndaşlıq və alimlik ölçüsüdür”.

“Xeyir işlər görməyə tələsin!” - Şərq mütəfəkkirinin bu kəlamı alimin həyat məramı idi. Akademik A.Mirzəcanzadə yüksək insani keyfiyyətlərini qiymətləndirərək deyirdi: “Əgər haçansa insanın xeyirxahlığını ölçmək üçün fiziki vahid tətbiq etmək lazım gələrsə, onu “1YM” - Yusif Məmmədəliyevin insialları ilə adlandırmaq lazımdır”.

Yusif Məmmədəliyevin 90 illiyinə həsr olunmuş yubiley təntənəsində böyük nitqlə çıxış edən Ümummilli Liderimiz Heydər Əliyev akademikin həyat və fəaliyyətinin geniş təhlilini verib, Yusif Məmmədəliyevin Azərbaycan elminin, dövlətçiliyinin püxtələşməsinə, inkişafına göstərdiyi misilsiz töhfəsini və misilsiz xidmətlərini vurğulayıb, yüksək qiymətləndirmişdir.

### Nobel mükafatına təqdimat, erməni hiyləsi

Görkəmli alim, akademik Y.Məmmədəliyev öz kəşflərinə və böyük elmi rəşadətinə görə “Nobel” mükafatına təqdim olunacaqdı. Yenə də işdə “erməni barmağı” göründü. 1957-ci ilin dekabr ayının 29-da, səhər saat 10-da MK-nın Siyasi Bürosunun tam tərkibli iclasında N.S.Xruşşov üçüncü məsələ olaraq Y.Məmmədəliyevin elmi kəşfinə keçən kimi bütün büro, MK üzvləri və namizədlər fəallıq göstərdilər, onun elmi işini “Əsrin hadisəsi” adlandırdılar. Ona dair sənədlərin Nobel Mükafatları Komitəsinə təqdim olunması qərarına bir neçə dəqiqə qalmış yenə də hər şey başqa yön aldı. Birdən iclasın ünvanına gəlmiş qəfil məktub üzə çıxdı. Bu məktubu MK katibliyi təqdim etmişdi. Məktubda Sovet Ordusu Arxa Təchizat İdarəsinin rəisi marşal Baqramyan və tank qoşunları generalı Babacanyan alimin misilsiz elmi nailiyyətlərini sözdə guya təqdir etsələr də, hərbi sirləri özündə ehtiva etdiyinə görə sənədlərin Stokholma göndərilməməsini məsləhət görürdülər.

Bununla da xalqımızın zəkaları tarixində layiq olduğu ilk Nobel mükafatı imkanının da düşmənlərimiz tərəfindən qarşısı alındı. UNESCO-nun 2005-ci ili “Yusif Məmmədəliyev ili” elan etməsi dünyaşöhrətli Azərbaycan aliminə verilən böyük qiymətdir. Bizim bu gün də adı Aristotel, Eynşteyn, Nils Bor və Norbert Vinerlə yanaşı tutulan, dünya elmində kompüter sahəsində yeni ab-hava yaratmış professor Ələsgər Lütfizadə, 1960-cı ildə lazer texnologiyasını ilk olaraq kəşf etmiş professor Əli Cavan, 1970-ci ildə ultrasəslə canlı bioloji toxumaların (sümüklərin) qaynağı, kəsilməsi və birləşdirilməsi sahəsində kəşflər etmiş professor Elyaz Babayev və başqaları dünya alimləri içərisində öz sözlərini demiş, Azərbaycanı yüksəklərə qaldırmışlar.

Prezident İlham Əliyevin 28 fevral 2005-ci il tarixli Sərəncamı ilə böyük alim, akademik Yusif Məmmədəliyevin 100 illik və 5 iyul 2025-ci il tarixli Sərəncamı ilə 120 illik yubileyinin qeyd olunması bir daha xalqımızın və dövlətimizin öz elminə və alimlərinə olan diqqət, qayğı və məhəbbətinin təzahürüdür.

**Əyyar SƏFƏROV,**
*Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin direktoru*

# AZƏRBAYCAN MİLLİ MƏTBUATI 150



**Pedaqoji fikir tariximizdə görkəmli maarifçi-pedaqoq, azərbaycanlı müəllimlərin ilk qurultayının təşkilatçısı və rəhbərlərindən biri olan Həsən bəy Zərdabi ictimai-mədəni fikir salnaməmizdə özünəməxsus yer tutur. Milli Mətbuatımızın 150 illiyi ərəfəsində H.B.Zərdabinin həyatı və çoxşaxəli fəaliyyəti ilə bir daha tanışlıq sübut edir ki, ona milli şüurun oyanmasında öz titanik fəaliyyəti ilə tarixi xidmətlər göstərmək şərəfi nəsib olub. Bunlardan biri heç şübhəsiz ki, qəzet nəşr etmək idi. Böyük maarifpərvərin 1875-ci ildə əsasını qoyduğu "Əkinçi" xalqı oyadan, maarifləndirən, cəmiyyətin inkişafına əngəl olan amilləri tənqid edən, xalqın ziyalılarını millətin dərdlərindən və öz ana dilində yazmağa ruhlandıran yeni maarifçilər nəslinin formalaşmasında əvəzsiz rol oynayıb. H.B.Zərdabinin mühərrirlik fəaliyyəti, pedaqoji sahədə gördüyü işlər, ictimai xidmətləri bu gün də xüsusi dəyər kəsb edir. "Əkinçi" qəzeti son 150 ildə ölkəmizdə maarifçilik, pedaqoji fikrin inkişafında əvəzsiz xidmətlər göstərib, pedaqoji mətbuatın formalaşmasına, inkişafına və bu gün də yaşamasına böyük vəsilə olub.**



# "Əkinçi" işığından nur alan pedaqoji mətbuatımız

Qeyd olunmalıdır ki, Azərbaycan maarifinin inkişafında pedaqoji qəzet və jurnalların əhəmiyyəti danılmazdır. Hələ XX əsrin ilk illərində "Əkinçi" işığından nur alaraq fəaliyyətə başlayan pedaqoji jurnallar ("Dəbistan", "Rəhbər", "Məktəb") maarifin inkişafına böyük təkan verirdi. Bu jurnallar məktəb sistemindəki ehtiyacları üzə çıxarmaqla dövrün maarif və mədəniyyət xadimlərini, ziyalıları düşündürür, onların həlli yollarına zəmin yaradırdı. Bu istiqamətdə fəaliyyətə başlayan ilk milli pedaqoji mətbuat orqanı "Dəbistan" jurnalı idi. 1906-cı il aprelin 16-da Bakıda Əli İskəndər Cəfərzadə və Məhəmməd Həsən Əfəndizadənin naşirliyi ilə nəşrə başlayan məcmuə 1908-ci il martın 1-nə kimi fəaliyyət göstərib. Jurnalın missiyası məktəbliləri maarifləndirmək idi.

## Azərbaycanda pedaqoji mətbuatın yaranması

"Dəbistan"da Əli İsgəndər Cəfərzadə, Məhəmməd Hadi, Şeyda, Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, R.Əfəndizadə, Musayev, Fərhad Ağazadə, Abbas Səhhət, Ə.Əfəndizadə, Fərəcullazadə və başqa qələm sahibləri dərc olunublar. "Dəbistan" jurnalının ilk nömrəsindən etibarən əlavə olaraq "Valideynə məxsus vərəqə" də nəşr olunub. Əlavənin buraxılması valideynlərin uşaq təlim və tərbiyəsi istiqamətində maarifləndirilməsi, məktəblərin təşkilində yaxından iştiraka cəlb edilməsi məqsədini daşıyırdı.

XX əsrin ilk illərində Azərbaycanda pedaqoji mətbuata böyük ehtiyac var idi. Azərbaycan SSR Xalq Maarif Komissarlığı bunu nəzərə alaraq, 1924-cü ildə "Yeni məktəb" adlı pedaqoji jurnalın nəşrinə başlayıb. Sonralar "Müəllimə kömək" adı ilə nəşrini davam etdirən jurnal "Azərbaycan məktəbi"nin sələfi olaraq Azərbaycanda pedaqoji fikrin inkişafında mühüm rol oynayıb.

1934-cü ilin sentyabr ayının 2-də "Azərbaycan müəllimi"nin sələfi olan "Kommunist maarifi" (o zaman qəzet belə adlanırdı) qəzetinin birinci nömrəsi çapdan çıxıb. Qəzet Azərbaycan SSR Xalq Maarif Komissarlığının və MİI Mərkəzi İdarəsinin orqanı kimi fəaliyyətə başlayıb. 4 səhifə həcmində çıxan qəzetin ilk redaktoru 1934-1937-ci illərdə Azərbaycanın xalq maarif komissarı vəzifəsində çalışan Mahmud Ağayev olub. "Qommunist Məarifi" qəzeti həmin dövrdə məktəb qarşısında duran mühüm vəzifələri - şagirdlərə elmlərin mənimsədilməsi, məktəb proqramını möhkəmləndirmək, ümumi əmək təlimini hər yerdə həyata keçirmək kimi məsələləri ciddi diqqətə alıb. Məktəblə bağlı mühüm vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsində müəllimlərə, maarif işçilərinə yaxından kömək edib. XX əsrin 25-30-cu illərində respublikada cəmi bir pedaqoji jurnal ("Yeni məktəb") və bir qəzet ("Qommunist Məarifi") nəşr olunduğu halda, sonralar "Qeyri-rus məktəblərində rus dili", "Azərbaycan dili və ədəbiyyat tədrisi", "Fizika və riyaziyyat tədrisi", "Kimya və biologiya tədrisi", "Politexnik təlim" məcmuələri buraxılır. "Yeni məktəb" jurnalının hər iki nömrəsi cəmi beş çap vərəqi həcmində idisə, sonralar təkcə "Azərbaycan məktəbi" jurnalı və ona əlavə olaraq nəşr edilən metodik məcmuələr birlikdə təqribən 40 çap vərəqi həcmində nəşr olunub və abunəçilərinin sayı 22 mini keçib. "Qeyri-rus məktəblərində rus dili" məcmuəsinin müttəfiq respublikalarda 345, xarici ölkələrdə 113; "Azərbaycan dili və ədəbiyyat tədrisi" məcmuəsinin isə müttəfiq respublikalarda 44, xarici ölkələrdə isə 42 abunəçisi olub.

"Qommunist Məarifi" ilk nömrəsindən başlayaraq kifayət qədər yüksək tirajla nəşr olunub. Qəzetin 10-cu nömrəsində onun 5000 tirajla çıxdığı qeyd edilib.

20 ildən sonra "Azərbaycan müəllimi" qəzeti 20 min nüsxəyə yaxın tirajla çıxıb. 60-cı illərdə "Azərbaycan müəllimi" qəzetinin 44 nüsxəsi xarici ölkə abunəçilərinə göndərilib. Bu illər ərzində pedaqoji mətbuatımız məzmununa və formasına daha da zənginləşdirərək məktəbin və müəllimlərin qarşısında duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsində maarif işçilərinə pedaqoji və metodik kömək edib.

Nəşrin ilk nömrəsində "5 gündə bir çıxan" (həftəlik) qəzet olduğu qeyd edilsə də ilk dövrlərdə buna əməl olunmayıb və təxminən ayda 2 dəfə nəşr olunub. Belə ki, həftədə 1 nömrə hesabı ilə 1934-cü ilin 4 ayı (sentyabr-dekabr) ərzində qəzetin ən azı 16 nömrəsi çıxmalı olduğu halda cəmi 10 nömrəsi nəşr olunub. Sonrakı illərdə dövrilik qaydasına düşüb.

Nəşrə başladığı ilk illərdən qəzet öz səhifələrində ədəbiyyat, mədəniyyət məsələlərinə də geniş yer ayırıb. Ölkənin ədəbi həyatından, ayrı-ayrı sovet, Azərbaycan və xarici ölkə ədiblərinin yaradıcılığından müntəzəm yazılar dərc edib. Tanınmış Azərbaycan yazıçısı və dramaturqu Cəfər Cabbarlının vəfatı xəbəri ilk dəfə məhz "Qommunist Məarifi" qəzetinin 1934-cü ildəki son nömrəsində dərc olunub. Xarici ölkələrdə təhsil və məktəblərin fəaliyyəti də qəzetin daimi mövzularından olub. Müxtəlif illərin nömrələrini vərəqlədikcə bu mövzuda yazılara tez-tez rast gəlmək mümkündür.

Nəşrə başladığı ilk dövrlərdən etibarən qəzetin ictimaiyyət arasında böyük nüfuz qazandığını göstərən cəhətlərdən biri də ölkənin ən tanınmış simalarının onun səhifələrində müntəzəm çıxışlar etməsidir. Belə ki, tanınmış yazıçılar Abdulla Şaiq, Qılman Musayev, SSRİ xalq artisti Şövkət Məmmədova, görkəmli maarif təşkilatçıları Cəmo Cəbrayılbəyli, Mehdi Mehdizadə, Azərbaycan jurnalistikasının korifeylərindən - Şirməmməd Hüseynov, dahi bəstəkar Üzeyir Hacıbəyli, görkəmli elm xadimləri Mirzağa Quluzadə, Əbdüləzəl Dəmirçizadə, Əhməd Seyidov, Mərdan Muradxanov, Heydər Hüseynov, Ağəmməd Abdullayev və onlarca başqaları qəzetlə müntəzəm əlaqə saxlayaraq onun səhifələrində dövrün ən aktual pedaqoji, ədəbi və mədəni məsələləri ilə bağlı sanballı yazılarla çıxış ediblər.

Azərbaycan dilinin saflığı, əlifbamızın təkmilləşdirilməsi uğrunda mübarizə də qəzetin daim diqqət yetirdiyi və öz səhifələrində yer ayırdığı məsələlərdən olub. Görkəmli dilçi alim Əbdüləzəl Dəmirçizadənin hələ 40-cı illərin ortalarında qəzetdə dərc olunmuş və latın qrafikalı Azərbaycan əlifbasının təkmilləşdirilməsi məsələlərindən bəhs edən "Əlifbamız haqqında" adlı geniş təhlili yazısı ("Azərbaycan müəllimi", 19 iyun 1947-ci il, №23) və onlarca digər məqalə fikrimizi sübut edir.

Təhsilə, pedaqoji məsələlərə geniş yer ayırdığı üçün qəzetin adı 1938-ci ildə dəyişdirilərək "Müəllim qəzeti" adlandırılıb. Qəzet 1938-1941-ci illərdə bu adla nəşr olunub. 1941-ci ilin 22 iyununda Almaniyanın SSRİ-yə hücumu və Böyük Vətən müharibəsinin başlaması ilə əlaqədar qəzetin nəşri dayandırılıb, əməkdaşları isə döyüşən orduya yollanıblar. Qəzet öz nəşrini 1946-cı ilin aprelində bərpa edərək "Azərbaycan müəllimi" adı ilə çıxmağa başlayıb və bu günədək də bu adla çıxmaqda davam edir.

"Azərbaycan müəllimi"nin tarixi Azərbaycan təhsilinin inkişaf tarixidir. Qəzet fəaliyyət göstərdiyi bütün illərdə təhsilimizin salnaməsinə çevrilib, dövlətin təhsil siyasətinin həyata keçirilməsində yaxından iştirak edib.

Təhsilin bütün sahələrində görülmüş işlər, təhsillə bağlı qəbul olunmuş dövlət və hökumət qərarları, onların yerinə yetirilməsi vəziyyəti qəzet səhifələrində öz dolğun əksini tapıb. Qəzet öz səhifələrində ölkənin tanınmış təhsil xadimləri, alim və mütəxəssislərin çıxışlarına, müxtəlif problemlərlə bağlı yazılara geniş yer ayırıb, Azərbaycan təhsili və ədəbiyyatının bir sıra tanınmış nümayəndələrinin ilk qələm təcrübələri bu mətbu orqanında dərc olunub.

## Pedaqoji mətbuatın güzgüsü

"Azərbaycan müəllimi" ölkənin ictimai-siyasi həyatına da biganə qalmayıb, ən mühüm hadisələrin işıqlandırılmasında fəallıq göstərib. Dünya ölkələrində təhsilin mövcud durumu, inkişaf istiqamətləri qəzetin daim diqqətində olub, bu sahədə müntəzəm yazılar dərc edilib.

Ölkəmizdə pedaqoji mətbuatın gözəl nümunələrini yaşadan "Azərbaycan müəllimi" qəzetinin ən şərəfli dövrünü, şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin iyulundan bəri Azərbaycanda hakimiyyətdə olduğu dövr təşkil edir. Cəmiyyət həyatında mətbuatın roluna böyük önəm verən Ulu Öndər hakimiyyətdə olduğu bütün illər ərzində digər mətbuat orqanları kimi "Azərbaycan müəllimi" qəzetinə də böyük diqqət və qayğı göstərmişdir.

"Azərbaycan müəllimi"nin 60 illik yubileyində Ulu Öndərin ünvanladığı təbrik məktubu məhz bu diqqət və qayğının, qəzetimizin fəaliyyətinə verdiyi yüksək dəyərin təzahürüdür: "Azərbaycan müəllimi" qəzeti respublikamızın mətbuat tarixinə şərəfli yaradıcılıq yolu keçmiş, pedaqoji ənənələrin inkişafına silinməz izlər buraxmış, özünəməxsus dəst-xətti ilə seçilən nəşrlərdən biri kimi daxil olmuşdur. Azərbaycanda pedaqoji mühitin formalaşmasında, müəllim kadrlarının elmi-metodiki səviyyəsinin yüksəldilməsində bu qəzetin mühüm xidmətləri vardır.

"Azərbaycan müəllimi" yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublika həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdir. Qəzet respublikamızda jurnalistika sənətinin inkişafı işində də əhəmiyyətli rol oynamışdır. "Azərbaycan müəllimi" qəzeti bu gün də öz ənənələrinə sadiq qalaraq, pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir".

Ulu Öndərin tövsiyələri uzun illərdir ki, 90 yaşlı qəzetin əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

Ümummilli Lider Heydər Əliyevin bütün sahələrdə olduğu kimi mətbuatla bağlı yeritdiyi siyasəti də uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev qəzetimizin 70 illik yubileyində "Azərbaycan müəllimi"nin kollektivinə ünvanladığı təbrik məktubunda onun ölkəmizdə təhsilin inkişafına verdiyi töhfəsini yüksək qiymətləndirib, təhsil məsələləri üzrə ixtisaslaşmış jurnalistlərin formalaşmasında aparıcı rol oynadığını bildirib.

"Azərbaycan müəllimi" bu gün cəmiyyətdə elmiliyi, milli-mənəvi dəyərlərə sadiqliyi, milli təhsil quruculuğunun təbliğində operativliyi, obyektivliyi, dəqiqliyi və peşəkarlığı ilə çağdaş pedaqoji mühitimizin güzgüsüdür və ölkəmizin müasir inkişaf tarixində özünəməxsus missiya daşıyır.

Qalib Azərbaycanın İkinci Qarabağ müharibəsində Şanlı Zəfəri "Azərbaycan müəllimi"nin səhifələrində məzmunlu məqalə və reportajlarla yadda qalıb. Qəzet torpaqlarımızın düşmən işğalından azad olunması və ərazi bütövlüyümüzün bərpası, Böyük Zəfərlə nəticələnmiş 44 günlük Vətən müharibəsində sinfini ön cəbhəyə - döyüş səngərinə dəyişmiş qəhrəman müəllimlərimizin şücaətindən bəhs edən silsilə yazıları ilə ictimaiyyətin rəğbətini qazanıb.

"Azərbaycan müəllimi" qəzetinin səhifələrində gənclərin Ulu Öndər Heydər Əliyevin zəngin və mənalı həyat yolu, çoxşaxəli fəaliyyəti nümunəsində tərbiyə edilməsi, onun siyasi irsinin öyrənilməsi zəminində gənc nəslin həyata hazırlanması, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin infrastrukturu və məzmunu sahəsində baş verən köklü dəyişikliklər, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi misilsiz qayğı, fondun dəstəyi ilə reallaşdırılan müvafiq layihələr haqqında mütəmadi olaraq analitik yazılar verilir. Qəzet cəmiyyətdə müəllim nüfuzunun, sosial rifahının yüksəldilməsi, məktəblərin və müəllimlərin fəaliyyətinin işıqlandırılmasında xeyli uğurlara imza atıb, əsl ziyalıların, peşəkar müəllimlərin, elm və təhsil fədailərinin tribunasına çevrilib. Qəzetin hazırda uğurla fəaliyyət göstərən internet saytı oxucu auditoriyasının daha da genişlənməsinə, pedaqoji maarifçilik işinin səmərəliliyinin artırılmasına müsbət təsir göstərir.

Böyük ictimai xadim, maarifçi, mütəfəkkir şəxsiyyət Həsən bəy Zərdabi "maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur" deyirdi. Onun yandırdığı maarif məşəlini bu gün pedaqoji mətbuatımızın sütununu təşkil edən "Azərbaycan müəllimi" şərəf və qürurla davam etdirir.

**Oruc MUSTAFAYEV**

# QƏRBİ AZƏRBAYCAN

# BİZ QAYIDACAĞIQ!

**Minillər boyu Qərbi Azərbaycanda (indiki Ermənistanda) yaradılmış mədəni irs yalnız bir xalqın keçmişinin izi deyil, həm də onun maddi və mənəvi varlığının ayrılmaz tərkib hissəsidir. Qəbiristanlıqlar, qədim yaşayış məskənləri, monumental abidələr, məscidlər, türbələr, pirlər, ziyarətgahlar, daş kitabələr Azərbaycan xalqının tarixi yaddaşının daşıyıcısı, milli kimliyinin canlı şahidləridir. Onlar əsrlər boyu bu torpaqlarda yaşamış bir millətin mədəni-mənəvi varlığını, dünyagörüşünü və bəşəri sivilizasiyaya verdiyi töhfələri özündə əks etdirir.**




**Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# Mədəni soyqırımın sənədləşdirilməsi:

## Qərbi Azərbaycan irsinə tarixi baxış

### Türkmənçay müqaviləsi: milli faciəmizin əsası

Türkmənçay müqaviləsindən (1828) sonra ermənilərin kütləvi şəkildə İrəvan xanlığı ərazisinə köçürülməsi bölgənin etnik-demoqrafik tərkibində mühüm dəyişikliklərə səbəb oldu. Bu köçürülmə nəticəsində azərbaycanlıların bölgədəki say üstünlüyü tədricən zəifləməyə, ermənilərin sayı isə sürətlə artmağa başladı. Azərbaycanlılara məxsus olan zəngin mədəni irs tədricən üstünlük qazanan erməni şovinistlərinin və vandallarının hədəfinə çevrildi. İndiki Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəni irs nümunələri planlı və məqsədyönlü şəkildə ya dağıdıldı, ya da özününküləşdirildi, izlər silindi, həqiqətlər təhrif olundu, zəngin tarixi irs məhv edildi. Bu, yalnız maddi-mənəvi dəyərlərin yox edilməsi deyil, həm də bir xalqın yaddaşına, ruhuna və kimliyinə qarşı yönəlmiş mədəni soyqırımı aktıdır.

### “Qərbi Azərbaycan İrsi” tədqiqatlar seriyası

Məhz bu tarixi-mədəni soyqırımı faktlarını sənədləşdirmək, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və milli yaddaşı daha da gücləndirmək məqsədilə Qərbi Azərbaycan İcması tərəfindən “Qərbi Azərbaycan İrsi” tədqiqatlar seriyasının nəşrinə başlanılıb. Bu silsilənin ilk buraxılışı olan “Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar” adlı fundamental nəşr, öz əhatəli məzmunu və faktoloji əsasları ilə xüsusi elmi və ictimai əhəmiyyət daşıyır.

Bu mühüm nəşr Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı, dosent Əziz Ələkbərlinin və tədqiqatçı alim Səbuhi Hüseynovun böyük zəhmət və fədakarlıqla ərsəyə gətirdiyi sanballı elmi-tarixi araşdırmadır. Fundamental nəşrin ərsəyə gəlməsində müəlliflərin həm peşəkar elmi yanaşması, həm də milli məsuliyyət hissi həlledici rol oynayıb. Bu tip əsərlər Qərbi Azərbaycan İcmasının Azərbaycan dövlətinin dəstəyi ilə həyata keçirdiyi məqsədyönlü fəaliyyətin və qayıdış strategiyasının vacib tərkib hissəsidir.

Nəşrin meydana gəlməsində tədqiqatın ideya müəllifi və layihə rəhbəri, sənətşünaslıq elmlər doktoru, professor Ədalət Vəliyevin böyük əməyi və intellektual rəhbərliyi həlledici rol oynamışdır. Onun təşəbbüsü, strateji baxışı və ideya dəstəyi sayəsində bu fundamental tədqiqat işi sistemli şəkildə ərsəyə gətirilmiş və elmi ictimaiyyətə təqdim edilmişdir.

Professor Ə.Vəliyevin bu fundamental nəşrə yazdığı ön sözdə tədqiqatın zəruriliyi, Qərbi Azərbaycanın maddi-mədəni irsinin sənədləşdirilməsinin milli və beynəlxalq miqyasda əhəmiyyəti, eləcə də bu sahədə aparılan məqsədyönlü fəaliyyətin tarixi mahiyyəti aydın şəkildə ifadə olunmuşdur: “Azərbaycanda ilk dəfə Ermənistan tərəfindən azərbycanlıların qəbiristanlıqlarının sistemli şəkildə dağıdılması siyasəti və onun nəticələri tədqiqat obyektinə çevrilmişdir. Bu tədqiqat tarixi-etnik torpaqları olan Qərbi Azərbaycandakı qəbiristanlıqlara qarşı Ermənistan dövəti tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən vandalizm siyasətinin sənədləşdirilməsinə həsr edilmişdir”.

Kitabın “Gülüstan” sarayında, respublikamızın ayrı-ayrı rayon və şəhərlərində, ali təhsil müəssisələrində elmi və siyasi elitanın iştirakı ilə yüksək səviyyədə təqdimat mərasimlərinin keçirilməsi nəşrin milli düşüncə və tarixi şüurunun formalaşmasında mühüm rol oynadığını bir daha nümayiş etdirdi.

Bu nəşrin monoqrafiya deyil, məhz “hesabat və materiallar” formasında tərtib edilməsi onun həm orijinallığını, həm də funksionallığını xeyli dərəcədə artırmışdır. Belə bir unikal yanaşma əsəri yalnız akademik auditoriyaya deyil, həm də beynəlxalq təşkilatlara, hüquq müdafiəçilərinə, diplomatik dairələrə və geniş ictimaiyyətə ünvanlanmış dəyərli informasiya mənbəyinə çevirmişdir. Bu format kitabı elmi-tarixi dəyərini saxlamaqla yanaşı, onu beynəlxalq hüquq, tarixi ədalət və mədəni yaddaşın bərpası kontekstində xüsusi aktuallığa malik sənədlər toplusuna çevirmişdir.

### “Qərbi Azərbaycan İrsi”nin strukturu

“Qərbi Azərbaycan İrsi” tədqiqatlar seriyasının 5 hesabatdan ibarət olması nəzərdə tutulub. I, II, III hesabatlarda Qərbi Azərbaycanda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılan azərbaycanlılara məxsus qəbiristanlıqlar, IV hesabatda məscidlər, V hesabatda isə pirlər və türbələr öz əksini tapacaq.

Kitabın 896 səhifədən ibarət olan I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində mövcud olmuş, indi isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilib, hər bir qəbiristanlığın vəziyyəti haqqında maksimum təsəvvür yaradılmasına nail olunub.

Ciddi metodoloji yanaşma əsasında hazırlanan kitabda müxtəlif elm sahələrinin (tarix, arxeologiya, coğrafiya, hüquq və informasiya texnologiyaları) sintezindən, 1890-1991-ci illərdə Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib və nəşr edilən, uzun müddət məxfilik statusunda saxlanılan müxtəlif ölçülü 250-dən çox topoqrafik xəritədən, Amerika Birləşmiş Ştatlarının kəşfiyyat peyklərinin təsvirlərindən, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycan arxivlərində saxlanılan sənədlərdən, Almaniya, ABŞ, Rusiya kitabxanalarındakı mənbələrdən, foto-video materiallardan, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların xatirələrindən istifadə edilib.

Araşdırmada istinad edilən xəritə kolleksiyaları Berlin Humboldt Universitetinin Coğrafiya Departamentindən, Greifsvald Universitetinin Coğrafiya və Geologiya İnstitutundan, İndiana Universitetinin Elmi Kitabxana Fondundan, ABŞ Milli Konqres Kitabxanasından, Rusiya Coğrafiya Cəmiyyətinin Tarixi kartoqrafiya bölməsindən toplanılıb.

Elmi əsərlərin yazılması üçün dünyada tanınan “Çikaqo 17 nəşr üslubu”nda hazırlanmış tədqiqat işində multispektral təhlil metodları mühüm yer tutur. Kitabda ABŞ Geoloji Xidmətinin EROS mərkəzindən əldə edilən “Landsat-4” və “Landsat-5” peyklərinin 3-cü və 4-cü sensorlarından alınmış multispektral təsvirlər əsasında landşaft transformasiyaları və bitki örtüyü dinamikası təhlil olunub. İnfraqırmızı və qırmızı spektral diapazonlarda aparılan analizlər torpaq örtüyündə və torpaq istifadəsindəki dəyişikliklərin, eləcə də qəbiristanlıqların landşaft mühitinin dəyişməsinin aşkarlanmasına imkan verib. Xəritə və peyk görüntüləri əsasında yerinə yetirilmiş təhlillər, dəyişikliklərin dinamikası və yerin faktiki vəziyyəti arasındakı fərqlər bu dağıntıların tək-tək yox, sistemli şəkildə həyata keçirildiyini obyektiv şəkildə sübut edir. Buna görə də kitabı beynəlxalq hüquqi platformalarda istinad oluna bilən etibarlı faktoloji materiallar toplusu kimi dəyərləndirə bilərik. Çünki burada beynəlxalq humanitar hüquq və mədəni irsin qorunmasına dair konvensiyaların vacib müddəaları nəzərə alınıb. “Mədəni soyqırımı” anlayışı bu hüquqi çərçivədə işlənib və faktlarla sübut olunub. Bu yanaşma göstərir ki, nəşr təkcə məlumat toplusu deyil, həm də hüquqi baxımdan əsaslandırılmış və məqsədyönlü şəkildə hazırlanmış strateji sənəddir.

Kitabın strukturu ön söz, iki hissə, coğrafi adlar üzrə göstəricilər, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısı, arxivlərin qısaldılmış adlarından ibarətdir.

Birinci hissədə “Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair” hesabatın məqsədi və vəzifələri açıqlanır, tədqiqatın predmeti və əhatə dairəsi müəyyənləşdirilir, istifadə olunan metodoloji prinsiplər, mənbələrin təsnifatı və onların hər birinin elmi səciyyəsi təqdim olunur. Tədqiqatın mərhələləri, qəbiristanlıqlara vurulmuş zərərin müəyyən olunması üçün tətbiq edilən metod və əldə olunan məlumatların sistemləşdirilməsi üsulları geniş şəkildə izah edilir, bu zərərin hüquqi nəticələri kontekstində Ermənistanın beynəlxalq hüquq qarşısında daşıdığı məsuliyyət əsaslandırılır.

İkinci hissədə “Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair” hesabatın əsas empirik materialları təqdim olunur. Bu bölmədə Axta, Allahverdi, Amasiya, Barana, Basarkeçər, Böyük Qarakilsə, Çəmbərək, Ellər, Əştərək, Gorus, Hamamlı, Karvansara, Keşişkənd, Qafan, Qarakilsə, Qəmərli, Qızılqoç, Meğri, Paşalı, Talın, Vedi, Vorontsovka rayonlarının hər birinin tarixi-coğrafi təsviri, inzibati əhatə dairəsi, yaranma tarixi və ərazi xüsusiyyətləri sistemli şəkildə təqdim edilir. Bu rayonların inzibati ərazisinə daxil olan kəndlərə aid azərbaycanlı qəbiristanlıqları ayrıca tədqiqat predmetinə çevrilir. Hər bir qəbiristanlıq üzrə onun coğrafi koordinatları, topoqrafik xəritələrdə yerləşməsi, mövcud vəziyyəti, dağıdılma səviyyəsi və sənədlərlə təsdiqlənmiş vizual (foto) materiallar təqdim olunur. Qəbiristanlıqların identifikasiyası zamanı xəritə materialları, arxiv sənədləri, peyk görüntüləri və digər məlumatlardan istifadə edilir. Bütün bu məlumatlar sistemli və metodoloji ardıcıllıqla təqdim olunur, hər bir coğrafi məkan üzrə müqayisəli təhlillər aparılır. Statistik və vizual dəyərləndirmə ilə kifayətlənməyən müəlliflər sənədləşdirilmiş mədəni soyqırımı faktlarını elmi əsaslarla təqdim etməyə nail olurlar.



### Qəbiristanlıqlar: torpağa vurulmuş daş möhür

Hər bir xalqın maddi-mədəni irsinin ən vacib hissəsini əsrlər boyu formalaşmış qəbiristanlıqlar təşkil edir. Qəbiristanlıqlar millətin yaşadığı torpaqlarda varlığının, mədəniyyətinin, dininin, dilinin, mənəviyyatının ən səssiz, lakin ən dərin izləridir. Qəbiristanlıqlar bir xalqın tarixini danışan daş kitabələrdir, torpağa vurulmuş daş möhürdür. “Tarix susanda, daşlar danışar, qəbiristanlıqlar bu daşların ən sərrast nitqidir” (Ş.L.Monteskye). Qəbiristanlıqlar yalnız dəfn yeri deyil, həm də tarixi yaddaş daşıyıcısı, mədəni kimlik göstəricisi, nəsillərarası mənəvi körpüdür.

Qəbiristanlıqlar tarixi (qəbir daşlarında yer alan adlar, tarixlər, titul və dini simvollar müəyyən bir dövrün tarixi faktlarını, əhalinin etnik və dini tərkibini, yaşayış məkanlarını, dil xüsusiyyətlərini və sosial strukturunu əks etdirir), mədəni (qəbiristanlıqlar xalqın mədəni dəyərlərinin, estetik zövqünün, adət-ənənələrinin, simvolik ifadələrini qoruyur), mənəvi-fəlsəfi (qəbiristanlıqlar xalqın həyat və ölümə olan münasibəti, dini-mənəvi dünyagörüşünü əks etdirir), milli kimliyin qoruyucusu (qəbiristanlıqlar bir xalqın milli yaddaşını, etnik kimliyini və tarixi varlığını torpaq üzərində fiziki formada qoruyub saxlayan məkanlardır), nəsillərarası varislik (dünyasını dəyişənlərin məzarlarını ziyarət etmək, onların ruhuna dua oxumaq, uşaqlara bu yerləri göstərmək xalqın nəsildən-nəslə ötürdüyü yaddaş və hörmət ənənəsinin bir formasıdır) funksiyalarını yerinə yetirir.

Deməli, bu “səssiz kitablar” daşlar vasitəsilə danışan tarix, ölməz şahidlərdir. Qəbiristanlıqlar xalqın keçmişini bu günə və gələcəyə bağlayan mənəvi körpü rolunu oynayır. Məhz buna görə də erməni vandalları azərbaycanlılara məxsus qəbiristanlıqları sistemli şəkildə dağıtmaqla, bir xalqın tarixini, yaddaşını, ruhunu, mənəvi bütövlüyünü və varlığını məhv etməyə çalışmışlar. Qəbiristanlıqları xalqın mədəni varlığının əsas sütunu hesab edən rus yazıçısı və publisisti İ.Erenburq “Bir xalqın mədəniyyətini məhv etmək istəyirsənsə, əvvəlcə onun qəbiristanlıqlarını dağıt” - deməklə mədəni soyqırımın mahiyyətini və bu soyqırımın hansı strateji məqsədlərə xidmət etdiyini çox aydın və təsirli şəkildə ifadə etmişdir. Bu baxımdan, Ermənistan ərazisində azərbaycanlılara məxsus qəbiristanlıqların məqsədyönlü şəkildə dağıdılması, izlərinin silinməsi mədəni soyqırım siyasətinin bariz nümunəsidir.

Ermənilər indiki Ermənistan ərazilərinin həmişə yalnız özlərinə məxsus olduğu barədə süni və saxta tarix yaratmağa çalışırlar. Bu məqsədlə azərbaycanlılara aid olan mədəni və dini abidələri - məscidləri, qəbiristanlıqları, türbələri sistemli şəkildə məhv edir, dağıdırlar. Onlar əsassız ərazi iddialarını beynəlxalq ictimaiyyətə qəbul etdirmək məqsədilə azərbaycanlıların bu ərazilərdə tarixən yaşamadığını sübut etməyə, tarixi reallıqların izlərini silərək saxta “tarix” üzərində iddialarını əsaslandırmağa çalışırlar.

Azərbaycanlıların müsəlman olması səbəbindən, bu dağıntılar həm də islamofobiyanın dini nifrət formasını əks etdirir. Məscidlərin və qəbiristanlıqların məqsədyönlü şəkildə məhv edilməsi dini və mədəni dözümsüzlüyün bariz nümunəsidir və bu, təkcə maddi deyil, xalqımızın tarixi yaddaşına və mənəvi kimliyinə vurulmuş ağır zərbədir. Deməli, Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması etnik nifrət, mədəni soyqırımı, tarixin saxtalaşdırılması və ərazi iddialarını möhkəmlətmək məqsədilə həyata keçirilmiş planlı və sistematik bir fəaliyyətdir.

### Qırılmış qəbir daşlarının göylərə qalxan naləsi

Görkəmli Azərbaycan yazıçısı Ə.Haqverdiyev yazırdı ki, qəbir daşları bir xalqın ömrü qədər danışar, onlara toxunan əllər sanki tarixə toxunur. “Qərbi Azərbaycan İrsi” kitabında təqdim olunan 201 qəbiristanlıq sanki bir zamanlar orada uyuyan əcdadlarımızın səsini bizə çatdırdı. Hər bir daşın dağıdılmış görüntüsündə bir ömrün susdurulmuş hekayəsini, bir ailənin kəsilmiş soy bağını, canilərin bir xalqın ruhuna tuşladıqları əli gördük. Vaxtilə əcdadlarımızın uyuduğu, duaların ucaldığı qəbiristanlıqlar bu gün tanınmaz haldadır. Bir zamanlar abidə kimi ucalan sinə daşları ya tamamilə sökülüb, ya da vəhşicəsinə parça-parça edilib. Qəbir daşlarının yerində indi səssizlik hökm sürür - ot-ələf basmış sahələr, yox olmuş məzar yerləri, dağıdılmış abidələrin qırıntıları... İzlər elə məqsədyönlü şəkildə silinib ki, sanki bu torpaqlarda nə vaxtsa həyat olmayıb, azərbaycanlılar heç vaxt yaşamayıb. Sındırılmış, parça-parça edilmiş, yerində əkin sahələri salınmış qəbiristanlıqların hər qarışında Qərbi azərbaycanlıların susdurulmuş yaddaşı, darmadağın edilmiş mənəvi irsi və tapdanmış Vətən haqqı yatır. Bu yerlər təkcə məzarların deyil, həm də xalqın taleyinin və tariximizin üzərindən şum çəkilmiş torpaqlarıdır. 1905-1906, 1918-1920, 1948-1953 və 1987-1991-ci illərdə zorla ata-baba yurdlarından didərgin salınmış, etnik təmizliyə və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların izləri məqsədli şəkildə ermənilərin əli ilə silinib. Qəbirlər dağıdılsa da, daşlardan adlar silinsə də, orada uyuyanların ruhu haray çəkir, bizi səssiz fəryadla qədim yurdlarımıza - doğma torpaqlarımıza çağırır.

Kitabdakı dağıdılmış qəbir daşlarının şəkillərinə baxdıqca “Dədə Qorqud” filmindəki o məşum səhnə - qırılmış qəbir daşlarının göylərə qalxan naləsi qulağımızda səslənir. Amma bu haray kino deyil, gerçəkliyin özüdür. Bu görüntülər təkcə gözlərimizi yaşartmır, ruhumuzu parçalayır. Çünki dağıdılmış sinə daşları dünyasını dəyişənlərdən daha yox, dirilərə - onların varislərinə qarşı yönəlmiş vəhşiliyin bariz nümunəsidir. Bu daşların altında cəsədlərlə yanaşı, susdurulmuş tarix, əzilmiş kimlik və ümidlərin gömüldüyü bir taleyin səssiz şahidləri yatır. Bu, ermənilərin yalnız insan qatili deyil, həm də mədəniyyət qatili olmalarının sübutudur. Dəhşət yalnız fiziki dağıntının miqyasında deyil, həm də insanlığa qarşı yönəlmiş düşüncənin qəddarlığındadır. Ulu Öndər Heydər Əliyevin təbirincə desək:”Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir”.

### Qəbiristanlıqların daş yaddaşını oyadan və onu sənədləşdirən kitab

Bu faciəvi tarixi reallıq fonunda “Qərbi Azərbaycan İrsi” kitabı yalnız itirilmiş mədəniyyətin və yaddaşın bərpası deyil, həm də haqqın, ədalətin və tarixi həqiqətin bərqərar olması üçün mühüm bir sənəddir. Bu nəşr məhv edilən qəbiristanlıqların daş yaddaşını oyadan, onu sənədləşdirən və xalqın susdurulmuş haqq səsini dünyaya çatdıran, dağıdılmış qəbiristanlıqların yerinə yaddaş salnaməsi ucaldan bir sənəd abidəsidir, tarixə qarşı yönəlmiş cinayətin sənədli sübutudur. Vizual materiallardan tutmuş arxiv sənədlərinə, peyk təsvirlərindən xəritə analizlərinə qədər hər bir detal bu soyqırımın miqyasını və məqsədli xarakterini dəqiq şəkildə göstərir.

“Qərbi Azərbaycan İrsi” yalnız bir kitab deyil, Qərbi azərbaycanlıların pozulmuş hüquqlarının bərpası uğrunda aparılan mübarizənin mühüm mərhələsini əks etdirən ideoloji və strateji sənəddir. O, tarixdən silinməkdə olan zəngin bir irsin, ruhun və yaddaşın dirçəlişinə çağırış, tarixi ədalətin bərpası, milli yaddaşın yenidən formalaşdırılması və mədəni kimliyin qorunması istiqamətində atılmış prinsipial bir addımdır. Hər dağıdılmış qəbirin, hər məhv edilmiş mədəniyyət nümunəsinin izini sənədləşdirən bu kitab yalnız keçmişi deyil, həm də gələcəyi qorumağa xidmət edir. Qərbi Azərbaycan bizim üçün yalnız bir coğrafi məkan deyil, həm də milli yaddaşın simvoludur.

Kitabın ərsəyə gəlməsi yalnız elmi deyil, eyni zamanda siyasi və ideoloji baxımdan da böyük əhəmiyyət daşıyır. Azərbaycan dövləti və cəmiyyəti bu məsələ ilə bağlı mövqeyini sözlə deyil, faktlara və sənədlərə əsaslanaraq ortaya qoyur.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin kitabın epiqrafı kimi seçilmiş və artıq bir millətin ideya bələdçisinə çevrilmiş aşağıdakı fikirləri nəşrdə toplanmış materialların ruhunu, məqsədini və gələcəyə yönəlmiş məzmununu dəqiq ifadə edir: “Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Zəngəzur, Göyçə mahalı bizim tarixi torpaqlarımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq”.

“Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar” adlı kitab tarixi yaddaşın sənədləşdirilməsi ilə yanaşı, Qərbi Azərbaycana sülh yolu ilə, ləyaqətli və təhlükəsiz şəkildə qayıdış prosesinə verilmiş mühüm töhfə kimi dəyərləndirilə bilər. Bu kitab təkcə dağıdılmış abidələrin fotosu və koordinatları deyil, həm də bir xalqın pozulmuş haqq səsinin sədasıdır. O səs isə artıq susmur- sənədlərlə, sübutlarla, faktlarla danışır.

### Minnətdarlıq

Bu dəyərli nəşrin ərsəyə gəlməsində tədqiqatın ideya müəllifi və layihə rəhbəri, sənətşünaslıq elmləri doktoru, professor Ədalət Vəliyevin, həmçinin müəlliflər - Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı, dosent Əziz Ələkbərlinin və tarixçi alim Səbuhi Hüseynovun gərgin əməyi, fədakarlığı və yüksək milli məsuliyyəti xüsusi qeyd olunmalıdır. Onları bu əhəmiyyətli elmi nəşrin ərsəyə gəlməsi münasibətilə səmimi qəlbdən təbrik edir, əsərin növbəti cildlərinin də işıq üzü görməsini arzulayıram.

**Fərrux RÜSTƏMOV,**
*Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi*



## “Mənim məktəbim”

Hər bir insan həyat səhnəsinə öz istedadı ilə çıxır. Biri ağ xalat geyinib həyat xilas etmək üçün həkim, digəri bilik öyrətmək üçün müəllim olur. Kimisi sözün sehrinə düşərək şair kimi tanınır və ya rənglərin dili ilə danışıb rəssama çevrilir. Bu istedadların parlaması üçün ilk zəmin, ilk nəfəs, ilk işıq isə məktəbdən gəlir. Və məktəb yalnız bilik verilən yer deyil, eyni zamanda istedadların kəşf edildiyi, şəxsiyyətin formalaşdığı bir məkandır. “Azərbaycan müəllimi” qəzetinin “Mənim məktəbim” rubrikasının budəfəki qonağı dünyaşöhrətli rəssam Sakit Məmmədovun həyat və yaradıcılıq yolu da məhz belə başlanğıclarla zəngindir. O, təhsilin gücü ilə istedadını kəşf edib, zəhmətin və inamın nəticəsində öz dünyasını yaradıb. Rənglərin arxasında bir ürək, bir ruh daşıyan Azərbaycanın Xalq rəssamı, professor, UNESCO Rəssamlar İttifaqının üzvü, Avropa Təbii Elmlər Akademiyasının fəxri professoru, Vatikan Heraldika Akademiyasının qrafı, Ümumdünya Rəssamlıq Akademiyasının həqiqi üzvü, Rusiya İmperial Rəssamlıq Akademiyasının fəxri üzvü, Roma Müasir İncəsənət Akademiyasının fəxri üzvü, Dünya İncəsənət Akademiyasının həqiqi üzvü və digər müxtəlif nüfuzlu beynəlxalq incəsənət qurumlarının həqiqi və fəxri üzvü olan ustad sənətkar bizimlə müsahibəsində məktəbin, təhsilin, müəllim və valideynin insan həyatındakı əvəzolunmaz rolundan, istedadlı gənclərin inkişafından danışıb.

Xalq rəssamı Sakit MƏMMƏDOV

# “Uşağı şəxsiyyətə çevirən ilk əllər məhz müəllimlərə məxsusdur”

– *Sakit müəllim, hər bir insanın həyat yolunda iz qoyan insanlar olur. Sizin taleyinizdə müəllimin rolu nə qədər önəmli olub?*

– Mənə görə, müəllim təkcə bir peşəni deyil, bir ömür yolunu, bir işıq mənbəyini ifadə edir. Obrazlı desək, müəllim insan taleyinə toxunan, onun gələcəyini yoğuran görünməz bir əldir. Mən hər zaman düşünmüşəm ki, insan içində nə qədər istedad daşısa da, onu kəşf edən, cilalayan, şəxsiyyətə çevirən məhz müəllimlərdir.

Əgər bu gün mən tanınıramsa, bunun kökündə, ilk növbədə, öz zəhmətim, atamın mənə dəstəyi, istər məktəb müəllimlərim, istərsə də rəssamlıq yolumu istiqamətləndirən ustadlarımın baxışındakı inam və peşəkarlıqları durur. Rəssamlığa marağımı ilk görən və bunu dəstəkləyən müəllimlərimin təsiri ilə bu gün olduğum yerə gəlmişəm. Mənim üçün müəllim həm yol göstərən çıraq, həm də arxamda dayanan dağ olub. Bu gün də onların səsi qulağımda, öyrətdikləri zehnimdə, ruhumdadır.

Müəllimlərimiz öyrədən olmaqla yanaşı, həm də əxlaq nümunəsi idilər. Və mənim həyatımda müəllimlərimin rolu danılmazdır. Onlar yalnız dərs demirdilər, bizi həm də həyata hazırlayırdılar.

### “Get arxada otur, şəklini çək”

– *Məktəb illərinə qayıtsaq... Rəssamlığa marağınızı ilk kim görmüşdü?*

– Mən Neftçala rayonunda doğulmuşam. Uşaq vaxtı evdə müxtəlif şəkillər çəkirdim. İlk böyük əsərim Molla Pənah Vaqifin portreti olub. Orta təhsilimi 8-ci sinfə qədər Neftçala şəhər 1 nömrəli tam orta məktəbdə almışam. Məktəbin rəhbərliyi və müəllimlərim rəssamlıq qabiliyyətimi bildiklərindən həmişə divar qəzetlərinin hazırlanmasını mənə tapşırardılar.

Məktəbdə artıq hamı deyirdi ki, sən mütləq rəssam olmalısan. Onu da deyim ki, dərslərimi “əla” qiymətlərlə oxuyurdum.

“Pionerlər evi”ndə işləyən qonşumuz mənim rəssamlığa olan həvəsimi görürdü və bir gün valideynlərimə dedi ki, bu uşağın istedadı var, gəlin onu rəsm dərnəyinə yazdırın. Həmin vaxt 6-cı sinifdə oxuyurdum və ailəmin razılığı ilə rəsm dərnəyinə getdim. Orada rəsmlə məşğul olmağa başladım. O dərnək mənim üçün içimdəki rəngləri kəşf etdiyim məkan idi. Orada sadə kağızlar üzərində arzularımı rəngləməyə başladım.

Sizə məktəb illərimlə bağlı bir əhvalat danışmaq istəyirəm. Deməli, tarix dərsi idi. Mən sinifdə şəkil çəkirdim və bütün uşaqların diqqətini özümə cəlb etmişdim. Dərsə qulaq asan yox idi. Müəllim məni dərsdən çıxardı. Bunun səbəbini soruşanda dərsə qulaq asmadığımı söylədi. Mən ona dedim ki, nəinki bugünkü dərsi, sabahınkını, hətta bir ay sonrakını da bilirəm. O məni sual-cavab elədi və gördü ki, həqiqətən, bütün mövzuları bilirəm. Dedi ki, sən dərsdən azadsan, get arxada otur şəklini çək.

Sonra bu hadisə ədəbiyyat dərsində də təkrarlandı. Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən Əjdər müəllim də məni sorğu-sual etdi və gördü ki, mən bütün keçiləcək mövzuları belə bilirəm. 13 yaşında Drayzeri, Balzakı oxuyurdum. Məndə belə bir adət var idi. Rayonumuzdakı “Pionerlər evi”ndəki rəssamlıq dərnəyində rahat məşğul olmaq, eləcə də evdə rəsm çəkmək üçün, həmçinin futbol oynamağa vaxtım olsun deyə yay tətilində bütün dərslikləri oxuyur, mövzuları öyrənirdim.

Artıq məktəbimizin müəllimləri həm biliyimə, həm də rəssamlıq istedadıma hörmətlə yanaşırdılar. Hər zaman dərslərimə hazır olmağım, içimdə alovlanan sənət sevgisi müəllimlərimi heyrətləndirirdi. Təbii ki, onlar bu sevgini boğmadılar, əksinə, ona nəfəs verdilər.



### “Rəssamlıq məktəbinə sənədlərimi gizlincə hazırladım...”

– *Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə (hazırkı Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) qəbul olunanda ailənizin reaksiyası necə oldu?*

– Bilirsiniz, mən uşaqlıqdan sərbəst, öz fikri olan biri olmuşam. Amma atamdan çəkinirdim. Dərsdən “4” qiymət alanda ondan gizlənirdim. Anam da evdar xanım idi.

Bizim evimiz zəngin kitabxanası ilə tanınırdı. Ailəmizdə kitaba, elmə, təhsilə sevgi var idi. Atam balıqçı olmaqla yanaşı, həm də yaxşı sənətkar kimi tanınırdı, əlindən hər şey gəlirdi. Gəncliyi müharibə dövrünə düşdüyündən ali təhsil ala bilməmişdi. Amma güclü mütaliəsi var idi, ədəbiyyatı, tarixi gözəl bilirdi.

Demək, mən 8-ci sinfi bitirdikdən sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə sənədlərimi gizlincə hazırladım. Ona görə yox ki, atam mənə icazə verməyəcək. Sadəcə fikirləşdim ki, birdən qəbul olmaram və atamın yanında pərt vəziyyətə düşərəm. Ona dedim ki, müəllim bizi Bakıya muzeylərə aparır. Və Rəssamlıq Məktəbinə imtahanları uğurla verərək daxil oldum. Mənim üçün artıq yolun başlanğıcı bəlli idi. Evə qayıdanda dedim ki, Rəssamlıq Məktəbinə daxil olmuşam. Atam sevinərək məni qucaqladı. Amma ondan niyə gizlətməyimin səbəbimi söyləyəndə kövrəldi.

Beləcə, mənim ilk tələbəliyim həmin məktəbdə keçdi, orada dövrümüzün ən tanınan müəllimlərindən İbrahim Rzayevdən, Bağır Maratlıdan, Eyyub Məmmədovdan dərs aldım. Rəssamlıq Məktəbini fərqlənmə ilə bitirdim.

Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirdikdən sonra 4 ay Neftçala rayonunun Xıllı qəsəbəsindəki məktəbdə rəsm müəllimi işlədim. Təsəvvür edin, dərs dediyim şagirdlərlə aramda cəmi iki-üç yaş fərq vardı. Şagirdlərim məni sevirdilər, əsgərliyə gedəndə kövrəlmişdilər.

– *Sizcə, yaxşı müəllim necə olmalıdır?*

– Yaxşı müəllim yaradıcı, peşəkar olmalıdır, uşağın beyninə, qəlbinə nüfuz etməyi, standartlardan kənara çıxmağı bacarmalıdır. Məsələn, bizim Səlimxanov soyadlı müəllimimiz vardı. Dərsi elə keçirdi ki, heyran qalırdıq. Bəzən proqramdan da kənara çıxırdı, amma dedikləri yaddaşımıza hopurdu. Mənim fikrimcə, şagird çərçivəyə salınanda o sıxılır. Müəllimlik gözəldir, amma hər adamın bacaracağı sənət deyil.

### “Ruhum da, istedadım da Vətənimlə bağlıdır”

– *İlya Repin adına Leninqrad Rəssamlıq Akademiyasını da fərqlənmə ilə bitirdiniz...*

– Tale elə gətirdi ki, 1978-1980-ci illərdə hərbi xidmətimi Rusiyada Petrozavodskidə ucqar bir kənddə çəkdim və əsgərlik dövrümdə oradakı Zabitlər Evində əsərlərimdən ibarət sərgi təşkil edildi. Əsərlərim bir generalın diqqətini çəkdi və onun qərarı ilə məni şəhərə qərargaha apardılar. Və burada çox böyük bir hədəfə doğru yol aldım. Qərara gəldim ki, ali təhsilimi İlya Repin adına Leninqrad Rəssamlıq Akademiyasında almalıyam. Əsgərliyi bitirdikdən sonra adıçəkilən akademiyanın Rəngkarlıq fakültəsinə daxil oldum. Həmin vaxtlar orada oxumaq asan deyildi. Hələ “Lenin təqaüdü”nə layiq görülmək. Azərbaycanlılardan bu təqaüdlə həmin akademiyanı bitirən ilk və hələ də yeganə tələbə olmaq mənim üçün təkcə fəxarət yox, həm də bir məsuliyyət idi. Ölkəmi layiqincə təmsil etmək, içimdəki sənət yanğısını əsərlərə çevirmək arzusundaydım. Akademiyanı da fərqlənmə ilə bitirdim.

### “5 şanslı tələbədən biri də mən oldum”

– *Leninqrad mühitində təhsil almaq rəssamlığınızda nə kimi rol oynadı?*

– Mən başda Bakıdakı ilk sənət müəllimim Adil Hacıyev və Leninqrad Rəssamlıq Akademiyasında ustadım olan SSRİ Xalq rəssamı Yevsey Moiseyenko olmaqla hamısına borcluyam. Moiseyenko çox böyük sənətkar idi. O artıq 2 və 3-cü kurslardan ən yaxşı tələbələri öz sinfinə qəbul edirdi və gənclər akademiyanı bitirənə qədər orada yaradıcılıq fəliyyətini davam etdirirdilər. Seçimi isə şəxsən özü aparırdı. Bilirsiniz, bu hər tələbəyə nəsib olmayan bir xoşbəxtlik idi. Və seçilən 5 şanslı tələbədən biri də mən oldum.

O vaxt tələbələr arasında Moiseyenkonun təsiri altına düşənlər çox idi. Mən Moiseyenkonun sinfinə düşəndə fikirləşdim ki, ya onun kimi olmalı, ya da Ermitajı seçməliyəm. Mən Ermitajı seçdim. Orada Rembrandt, Vinsent van Qoq, Leonardo da Vinçi kimi dahilərin əsərləri vardı. Mütəmadi öyrənirdim və günümü orada keçirirdim. Hər zaman öz istəklərimə uyğun, müstəqil şəkildə hərəkət etməyi sevirdim. Moiseyenko haqqımda deyirdi ki, bu, bizim üçün tapıntıdır.

Leninqrad Rəssamlıq Akademiyasını bitirdikdən sonra həmin ali təhsil ocağının prezidenti Boris Sergeyeviç Uqarov mənə orada müəllim kimi qalmağı təklif etdi. Dedi ki, səni evlə də təmin edərik. Razılaşmadım və Vətənimi seçdim. Çünki ruhum da, istedadım da Vətənimlə bağlıdır.

– *Ən çox hansı janrda və mövzular üzərində işləməyi sevirsiniz?*

– Mövzu məhdudiyyəti tanımamışam. Məni daha çox portret janrı özünə cəlb edir. Təbii ki, hər rəssamın içində hansısa ideyalar, çağırışlar olur, amma mənim üçün həm də ən böyük müəllim Allah, bir də təbiətin özüdür. Biz, əslində, təbiətdən öyrənirik. Təbiət sanki deyir ki, bax, bu rəng, bu işıq, bu sükut. Bunlar sənə nə deyir? Rəssamlıq öyrədilmir, öyrənilir.

### “Mənim üçün incəsənət yalnız rənglərdən ibarət deyil”

– *Emalatxananızda müxtəlif musiqi alətlərini – royal, saz, tar görürük. Görünür ki, istedadınız təkcə rəssamlıqla məhdudlaşmır.*

– Bəli, hansı musiqi aləti olsa, ifa edirəm. Ən çox sazda ifa etməyi xoşlayıram. Bilirsiniz, çalmağı harada öyrənmişəm? Bəhs etdiyim Neftçaladakı “Pionerlər Evi”ndə. Rəssamlıq dərnəyinə gedəndə digər otaqlarda musiqi ilə məşğul olan uşaqları görürdüm. Qulağım daim musiqidə idi. Qaçıb sazda, tarda və digər musiqi alətlərində çalmağı öyrənirdim. Bu, mənim musiqiyə olan həvəsim və marağım idi. Və bu həvəs nəticəsində bir neçə musiqi alətlərində ifa etməyi öyrəndim.

Mənim üçün incəsənət yalnız rənglərdən ibarət deyil. Musiqini də sevirəm, hansı musiqi alətini əlimə alıramsa, onunla danışmağı bacarıram. Bu da mənim içimdəki ifadə ehtiyacının başqa bir yoludur.

### “Uşaq 1-2 ay şəkil çəkəndən sonra...”

– *Bəzən valideynlər övladlarının istedadını görür, onları dəstəkləmək istəyirlər. Bu dəstək həmişə doğrumu istiqamətlənir?*

– Təəssüf ki, hər zaman yox. Uşağın rəssamlıq qabiliyyəti varsa, çox gözəl. Amma bəzi valideynlər bu prosesi düzgün başa düşmürlər. Uşaq 1-2 ay şəkil çəkəndən sonra başlayırlar soruşmağa: “Bunun sərgisini nə vaxt təşkil edək?”. Axı bu, belə olmur. Uşaq da bir müddət sonra özünü artıq “rəssam” saymağa başlayır. Bu, olduqca yanlış bir yanaşmadır.

Bir hadisəni danışım. Yanıma bir dəfə 13 yaşında bir uşaq gətirmişdilər. Atası dedi: “Sakit müəllim, istəyirik övladımız sizin tələbəniz olsun”. Dedim, yaxşı. Gözləyirəm ki, uşağın çəkdiyi rəsmləri göstərsinlər. Onun əvəzinə qalın bir broşür uzatdılar. Uşağın aldığı fəxri fərmanlar, diplomlar, müxtəlif yerlərdə tutduğu yerlər – nə desən, var. Zarafatla dedim ki, bu qədər mükafat məndə belə yoxdur. Bunu niyə mənim yanıma gətirmisiniz ki? O artıq “tanınmış rəssam”dır.

### “Valideyn-məktəb-müəllim əməkdaşlığı vacibdir”

– *Sizcə, gənclər peşə seçimində nə dərəcədə sərbəst olmalıdırlar?*

– Əgər mənim övladım riyaziyyatı yox, rəssamlığı, yaxud musiqini seçmək istəyirsə, qoy seçsin. O, sevdiyi sahədə daha uğurlu olacaq. Biz çox vaxt uşaqları özümüz ola bilmədiyimiz sənət sahibi kimi görmək istəyirik. Bu, yanlışdır. Hər bir uşağın daşıya biləcəyi qədər bir yük var.

Mən düşünürəm ki, uşağa hər hansı fənni, peşəni sevdirən, ilk növbədə, müəllimdir. Valideynlərdən daha çox müəllim uşağın potensialını, bacarığını görə bilir. Buna görə də valideyn-məktəb-müəllim əməkdaşlığı olduqca vacibdir.

– *Uşaqların bədii-estetik zövqü necə formalaşdırılmalıdır?*

– Çox vacib sualdır. Valideynlər övladlarının bədii-estetik zövqünün formalaşdırılması üçün onları sərgilərə, muzeylərə, operaya, teatra, kinoya aparmalıdırlar. Yaxşı olar ki, valideynlər ailəvi vaxtları incəsənət ocaqlarına da həsr etsinlər? Bu, istəyə bağlı məsələdir. Sadəcə prioritetləri düzgün seçmək lazımdır.

### “Mən alın yazımı öz alın tərimlə silərək yenidən yazdım”

– *Uğur və məşhurluq haqqında nə düşünürsünüz?*

– Bu gün hamı məşhur olmaq istəyir. Həm də çox tez. Amma məşhurluğa gedən yolda zəhmət, əziyyət, göz yaşı, inam və dözüm var. Mən Sakit Məmmədov olana qədər, bilirsiniz, nə qədər əziyyət çəkmişəm. Gecə-gündüz çalışırdım. Bəzən məndən alın yazısına inandığımı soruşurlar. Zarafatla deyirəm: “Mən alın yazımı öz alın tərimlə silərək yenidən yazdım”.

Hər gün səhərdən-axşama qədər emalatxanadayam. Mənim əllərim illərlə rəsm çəkməkdən qabar bağlayırdı. Amma bu zəhmətin bəhrəsini indi görürəm.

– *Gənclərə tövsiyəniz...*

– Qarşılarına məqsəd qoysunlar. Və ona çatmaq üçün gecə-gündüz çalışsınlar. Əziz gənclər uğura gedən yolda bəzən büdrəyə, yıxıla bilərsiniz. Bu, tamamilə təbiidir. Əsas məsələ yıxıldıqdan sonra qalxmaq, irəli getməkdə israrlı olmaqdır. Əgər dayanmadan çalışsanız, bir gün uğur özü gəlib sizi tapacaq.

Rəssamlığı seçən gənclərimiz öz yolunu tapmalıdır. Kimisə təqlid etməklə deyil, içindən gələn səslə hərəkət etməklə sənətə töhfə vermək olar.

İstedad hər kəsdə ola bilər, amma onu görmək, qorumaq və inkişaf etdirmək üçün düzgün istiqamətləndirməyi bacaran insanlar, müəllimlər və çalışqanlıq lazımdır. Və ən əsası, heç vaxt arzularından vaz keçməsinlər.

**Samirə KƏRİMOVA**

# Təhsil işçiləri üçün güzəştli “TəhsilPlus” kartı ictimaiyyətə təqdim olunub




İyulun 18-də Təhsilin İnkişafı Fondu, “Kapital Bank” və “Mastercard” qlobal texnologiya şirkətinin birgə təşkilatçılığı ilə həyata keçirilən çoxfunksional “TəhsilPlus” kartının təqdimat mərasimi baş tutub.

AZƏRTAC xəbər verir ki, elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli çıxış edərək təhsil işçilərinin sosial rifahının yaxşılaşdırılması və bu məqsədlə həyata keçirilən təşəbbüslərin əhəmiyyətindən bəhs edib. Nazir müşaviri təhsil işçilərinin cəmiyyətin inkişafındakı rolunu vurğulayaraq, bu kimi sosial təşəbbüslərin davamlı və daha genişmiqyaslı olmasının vacibliyini qeyd edib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov rəhbəri olduğu qurumun 4 illik fəaliyyətinə dair geniş təqdimatla çıxış edib. O, Fondun son dövrlərdəki fəaliyyət istiqamətlərini diqqətə çatdıraraq, xüsusilə rəsmi veb-saytın yenilənməsi, “İanə et” bölməsinin istifadəyə verilməsi, Qarabağ Təqaüd Proqramının təsis olunması, “TələbəPlus” kartı çərçivəsində görülən işlərlə bağlı məlumatları diqqətə çatdırıb, ümumi statistik məlumatları bölüşüb.

Sədr həmçinin Fondun yeni təşəbbüsü olan “TəhsilPlus” kartını ön plana çəkərək, hədəf qrupu, üstünlükləri, faydalarından söz açıb. Qeyd olunub ki, çoxfunksional kart məktəbəqədər, ümumi, peşə, orta ixtisas və ali təhsil pillələrində çalışan pedaqoji və inzibati heyət üçün nəzərdə tutulur və 450 min nəfəri əhatə etməsi planlaşdırılır.

Daha sonra “Kapital Bank”ın İdarə Heyətinin üzvü, Baş Korporativ satış inzibatçısı Fərid Hidayətzadə çıxışında təhsil sahəsinə göstərilən dəstəyin bankın əsas prioritetlərindən biri olduğunu vurğulayıb. O qeyd edib ki, “Kapital Bank” üçün müəllimlər və təhsil işçiləri cəmiyyətin gələcəyini formalaşdıran əsas qüvvədir və bu istiqamətdə atılan hər addım gələcəyə sərmayə kimi qiymətləndirilir. “TələbəPlus” kartının uğurundan bəhs edən Fərid Hidayətzadə artıq 200 minə yaxın tələbənin bu imkanlardan faydalandığını bildirib. “TəhsilPlus” kartının isə daha geniş auditoriyanı – müəllim və təhsil işçilərini əhatə etdiyini, onlara müxtəlif güzəştlər və üstünlüklər təqdim edəcəyini diqqətə çatdırıb. Sonda o, layihənin tərəfdaşlarına təşəkkürünü bildirərək təhsil sahəsində birgə daha çox uğurlu layihələrə imza atılacağına inandığını bildirib.

“Mastercard” şirkətinin biznesin inkişafı üzrə vitse-prezidenti Engin Yaşar “TəhsilPlus” kartının rəqəmsal və çoxfunksiyalı imkanlarını “Mastercard” texnologiyalarının təmin etdiyini vurğulayıb. Onun sözlərinə görə, ölkə üzrə ilk bu tip kartın sahibləri “Mastercard”ın “Priceless Specials” platforması çərçivəsində xüsusi endirimlərdən də yararlana biləcəklər.

“TəhsilPlus” kartının uğurla reallaşdırılması istiqamətində atılan ilk strateji addımlardan biri Təhsilin İnkişafı Fondu, “Kapital Bank” və “Mastercard” şirkəti arasında imzalanan Əməkdaşlıq Memorandumu olub. Sözügedən üçtərəfli sənəd Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, “Kapital Bank”ın İdarə Heyətinin üzvü Fərid Hidayətzadə və “Mastercard” şirkətinin Azərbaycan üzrə ölkə meneceri Emil Zeynalov tərəfindən imzalanıb.

Tərəflər arasında strateji tərəfdaşlığın rəsmi təsdiqi olan memorandum gələcəkdə “TəhsilPlus” kartının funksionallığının və əhatə dairəsinin genişləndirilməsi üçün də əsas baza rolunu oynayır.

Daha sonra Fondun nümayəndəsi Aysel Məhərrəmova “TəhsilPlus” layihəsinə qoşulmaq imkanları barədə məlumat verib. Bildirilib ki, maraqlı şirkətlər Fondun rəsmi internet səhifəsində yerləşən müvafiq əlaqə vasitələri ilə müraciət edərək “TəhsilPlus” kartı istifadəçilərinə öz məhsul və xidmətlərini təqdim etmək vasitəsilə layihəyə töhfə verə bilərlər.

Tədbir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərən “Cadenza” orkestrinin təqdimatında bədii hissə ilə davam edib.

Qeyd edək ki, təhsil müəssisələrində fəaliyyət göstərən şəxslərə müxtəlif güzəşt və imtiyazlar təqdim etməklə, onların sosial rifahını yüksəltmək və imkanlarını genişləndirmək məqsədi daşıyan “TəhsilPlus” kartı yeni tədris ilində istifadəçilərə təqdim ediləcək.







# GDU-nun tələbəsi Avropa çempionu oldu

İtaliyanın Kaorle şəhərində iyulun 4-5 tarixlərində də keçirilən “U20 Avropa çempionatı”nda Gəncə Dövlət Universitetinin 3-cü kurs tələbəsi Vasif Bağırov sərbəst güləş üzrə Avropa çempionu adını qazanaraq qızıl medal əldə edib. O, Türkiyə, Macarıstan, Moldova və Gürcüstan idmançılarına qalib gələrək çempionatın ən yüksək pilləsində yer alıb.

Vasif Bağırov daha əvvəl “U17 Avropa çempionatı-2022” və “U17 Dünya çempionatı-2022”də qızıl, “U20 Avropa çempionatı-2024”də isə gümüş medal qazanıb. O, həmçinin dünya çempionu kəmərinə sahibdir.

**Firuzə CÜMŞÜD,**
*Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi*

# Naxçıvanın 11 yaşlı şahmatçısı ustalığa namizəd adını alıb

**Naxçıvan Muxtar Respublikasının 11 yaşlı məktəbli şahmatçısı Yasin Əzimov növbəti uğura imza atıb.**

**Naxçıvan MR Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Azərbaycan müəllimi"nə verilən məlumata görə, Beynəlxalq Şahmat Federasiyası (FIDE) Yasin Əzimova ustalığa namizəd (CM - Candidate Master) dərəcəsini verib. Bu nailiyyət Naxçıvan şahmat tarixi üçün əlamətdar hadisədir, çünki gənc şahmatçı bu titulu 11 yaşında qazanıb.**

**FIDE reytinqi 2058 olan Yasin Əzimov son illərdə həm yerli, həm də beynəlxalq turnirlərdə qazandığı mühüm uğurlarla yadda qalıb. Azərbaycan çempionatının qızıl və gümüş mükafatçısı olan Yasin 2023-cü ildə Albaniyanın Durres şəhərində 9 yaşlı oğlanlar arasında keçirilən şahmat üzrə Avropa çempionatının qızıl medalına layiq görülüb.**

**Aytən YUSİFOVA,**
*Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi*

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003,

**Tiraj** 24439 **Sifariş** 1504

**Məsul növbətçi:** S.Kərimova



# “Qəbələ alimləri” kitabının təqdimatı keçirilib




Bu günlərdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yazar Zinyət Tahirlinin “Qəbələ alimləri” kitabının təqdimat mərasimi keçirilib. Tədbirdə Qəbələ rayon təhsil ictimaiyyəti, şəhid valideynləri, müxtəlif ali təhsil müəssisələrində çalışan qəbələli professor-müəllim, ziyalılar və digər şəxslər iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb. Sonra Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin aparıcısı Nurlan Əzizov iştirakçıları salamlayaraq “Qəbələ alimləri” kitabı haqqında danışıb. Kitabın 316 səhifədən ibarət olduğunu deyən Nurlan Əzizov onu da qeyd edib ki, Zinyət Tahirlinin böyük əzmkarlıq və zəhmətlə ərsəyə gətirdiyi əsərdə Qəbələ torpağında dünyaya göz açmış, Azərbaycan elminə böyük töhfələr verən 35 alimin hər birinin həyat və yaradıcılığı haqqında tərcümeyi-hal oçerkləri öz əksini tapıb.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Qalib Nəbiyev tədbirdə çıxış edərək belə bir əhəmiyyətli təqdimatın rəhbərlik etdiyi təhsil müəssisəsində keçirilməsindən məmnun olduğunu deyib. Kitabın təkcə qəbələlilər üçün deyil, eyni zamanda kitabsevərlər üçün böyük əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Tədbirdə qəbələli alimlər Musa Məmmədov, Natiq Yusifov, Muraday Abdullayev, Minirə Qarayeva, Qara Əhmədov, Xalid Əlimirzəyev, Ələkbər Kərimov və digərlərinin ailə üzvləri çıxış edib. Onlar müəllif Zinyət Tahirliyə belə bir kitabın hazırlanmasında çəkdiyi zəhmətə görə dərin təşəkkürlərini bildiriblər.

Tədbirdə professor Ədalət Tahirzadə kitabın müəllifi Zinyət Tahirliyə Azərbaycan Yazıçılar Birliyinin üzvü vəsiqəsini təqdim edib.

Zinyət Tahirli tədbirin sonunda çıxış edərək iştirakçılara dərin minnətdarlığını bildirib. Kitabın ərsəyə gəlməsindən danışan müəllif gələcəkdə “Qəbələ alimləri” haqqında ikinci cildin də hazırlayacağını planlaşdırdığını iştirakçıların diqqətinə çatdırıb.

**Niyazi RƏHİMOV**

# Etibarsız sayılır

**İmişli rayon** Yalavac kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Cəbrayılzadə Ülkər Mehman qızına verilmiş B-213537 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli xüsusi internat məktəbini** 2008-ci ildə bitirmiş Çələbiyev Çələbi Arif oğluna verilmiş 002568 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 15 nömrəli tam orta məktəbi (indiki Texniki və humanitar fənlər liseyi) 2006-cı ildə bitirmiş Əliyev Elvin Assan oğluna verilmiş B-264238 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Qasımov Söhrab Qüdrət oğluna verilmiş A-580065 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Mehtiyeva (Lətifova) Leyla Ətraf qızına verilmiş 088833 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ləki qəsəbə 6 nömrəli tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmş Hüseynov Rufan Tahir oğluna verilmiş A-080529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Baxışova (Umarova) Pərvanə Məhəmmədəli qızına verilmiş A-029332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2014-cü ildə Quliyev Fərrux Cavanşir oğluna verilmiş AM-002682 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Pensər kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Zəkəriyayev Zaur Telman oğluna verilmiş 029045 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2004-cü ildə Səfiyev Samir İsmayıl oğluna verilmiş B-021068 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetinin Qazax filialı** tərəfindən 2022-ci ildə Alıyeva Salatın Eldəniz qızına verilmiş C-164819 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1997-ci ildə Əliyev Kənan İlyas oğluna verilmiş A-000584 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universitetinin Kolleci** tərəfindən 2022-ci ildə Xıdırov Ünal Elmar oğluna verilmiş AA-177422 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əsgərli Məhəmməd Əlizadə oğluna verilmiş A-306986 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2019-cu ildə Ələkbərov Cəmil Pərviz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Astanlı kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Məmmədov Şahin Əfrus oğluna verilmiş B-338730 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı** tərəfindən 2017-ci ildə Hüseynova Fidan İlqar qızına verilmiş A-142239 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2017-ci ildə Nəsirov Cavid Namiq oğluna verilmiş A-122293 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər Təbiət-Riyaziyyat və Humanitar Elmlər Təmayüllü liseyin** IX sinfini 2020-ci ildə bitirmiş Əmirkişiyev Sahib Səbuhi oğluna verilmiş C-370223 nömrəli ümumi orta təhsil haqqında attestat və 2022-ci ildə verilmiş E-520563 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 212 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Hüseynli Musa Aydın oğluna verilmiş A-402645 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Həsənsu kənd tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Həsənov (Dursunoğlu) Səəddin (Sahaddin) İlimdar oğluna verilmiş A-000691 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Sumqayıt Peşə Liseyi** (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2015-ci ildə İbrahimov Rüstəm Mehman oğluna verilmiş A-390960 nömrəli tam orta təhsil haqqında attestat və A-070782 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Alıyeva (Osmanova) Təravət Bədrəddin qızına verilmiş 312372 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Musaküçə kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Eynullayev Fərhad Məmməd oğluna verilmiş B-440200 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Bədəlan kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Bağışova Xəyalə Mehman qızına verilmiş A-402611 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qasımlı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Şükürov İlqar İmanxan oğluna verilmiş A-019131 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Rufullayeva (Şükürova) Elmira Əliağovna qızına verilmiş A-238647 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Şərəfə kənd tam orta ümumtəhsil məktəbi 1978-ci ildə bitirmiş Kərimov İftixar Şükür oğluna verilmiş A-134149 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 4 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1985-ci ildə bitirmiş Yəhyayeva Xuraman Gülmirzə qızına verilmiş A-777844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Qız Peşə Məktəbi** tərəfindən 1997-ci ildə Cavadova Lalə Səid qızına verilmiş AB-029610 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Şəhriyar kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Nəzərova Rəsmiyə Hüseyn qızına verilmiş A-120779 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Yusifov İmran Əliməmməd oğluna verilmiş A-307896 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1993-cü ildə bitirmiş Musayeva Ruqiyyə İkram qızına verilmiş 221210 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Rüstəmova Nigar Rüstəm qızına verilmiş BB-I-022208 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Elektrotexnikumu** tərəfindən 1986-cı ildə Aydəmirov Əbilqasım Musa oğluna verilmiş KT-019581 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2015-ci ildə Həsənli Sevinc Fəxrəddin qızına verilmiş A-053701 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2002-ci ildə Hüseynov Rəşad Nizami oğluna verilmiş A-106346 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2010-cu ildə Ağaşirinov Nurlan Şamxal oğluna verilmiş B-185331 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Ahmed Valid Mudavi oğluna verilmiş BC-176147 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** C.Rüstəmov adına tam orta məktəbi 1993-cü ildə bitirmiş Xıdırova Sənanə Səftər qızına verilmiş A-253947 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** tərəfindən 2014-cü ildə Məhərrəmova Səkinə Savadağa qızına verilmiş AA-040261 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Kərimova Xəyalə Mirzəkərim qızına verilmiş A-532 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2017-ci ildə Məmmədov Ramin Vahid oğluna verilmiş A-120198 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyini** 2016-cı ildə bitirmiş Umudov Rüstəm Rövşən oğluna verilmiş A-494948 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2001-ci ildə Səfquliyev Ədalət Famil oğluna verilmiş AB-054843 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2018-ci ildə Fərzəliyeva Sitarə Ramid qızına verilmiş C-005887 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Şirinov Rəşad Vəli oğuna verilmiş C-043804 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2008-ci ildə Qurbanova Röyanə Nizami qızına verilmiş B-146326 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əhmədzadə Şəbnəm Rafael qızına verilmiş E-013560 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Quliyev Arzu Cəmşid oğluna verilmiş A-627874 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağ Kəsəmən kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Vəliyev Məmməd Rafiq oğluna verilmiş E-229571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.